Xalqın qəzeti!

# Xalq qəzeti

№ 179 (30295) 23 avqust 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

Azərbaycan və Özbəkistan ictimaiyyəti bugünkü danışıqların nəticəsini həm Azərbaycanda, həm də Özbəkistanda layihələrin praktiki olaraq reallaşmasında görəcək. Biz doğru yoldayıq, prezidentlərin qarşıya qoyduqları vəzifələr yerinə yetirilir.

# Azərbaycan – Özbəkistan: münasibətlər ən yüksək səviyyədədir

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri

### Rəsmi qarşılanma mərasimi





**Azərbaycan Respublikasına dövlət səfərinə gələn Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin avqustun 22-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Özbəkistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və xanımı Ziroatxon Mirziyoyevanı qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Özbəkistan Prezidentinə raport verdi.

Prezident Şavkat Mirziyoyev Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Özbəkistan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və xanımı Ziroatxon Mirziyoyevaya, Özbəkistan nümayəndə heyəti isə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin qarşısından keçdi.

Dövlət başçıları və xanımları birgə foto çəkdirdilər.

*AZƏRTAC*

### Azərbaycan və Özbəkistan prezidentlərinin təkbətək görüşü



Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olub.

*AZƏRTAC*

## Xalqın bir əsrlik salnaməsi

**Avqustun 29-da "Xalq qəzeti"nin 104 yaşı tamam olur. Bu nəşr sovet dövründə partiya orqanı olmasına baxmayaraq Azərbaycanın XX əsrin sonlarına doğru əldə etdiyi müstəqillikdə müstəsna rol oynamış, üzərindəki kommunist buxovunu ataraq, yeni gün uğrunda xalq əzmkarlığının tribunasına çevrilməyi bacarmışdı.**




Bu dəst-xətt əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş milli mətbuatımızın ənənələrinə sadiqlikdən xəbər verən başlıca xüsusiyyət idi. Həsən bəyin "Əkinçi"si cəmiyyətdə qəzet bumu formalaşdırmış və bu, nəticə etibarilə 1918-ci il müstəqilliyinə aparan yola ideoloji zənginlik gətirmişdisə, mətbuatımız eyni missiyanı əsrin sonlarına doğru yenidən təkrarlamış və o zaman "Xalq qəzeti"nin kollektivi də öndə olmuş, istiqlalımızın məfkurəvi strukturunun formalaşmasına əməli töhfə vermişdi. Bu, jurnalist peşəkarlığının milli maraq və mənafelər naminə səfərbərliyinin bariz nümunəsi kimi yaddaşlarda əbədi qalacaq tarixdir. "Xalq qəzeti" olaraq keçilən yola, həmçinin tariximizin bir parçasına nəzər salmaq üçün avqustun 29-dək qəzetimizin Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında oynadığı rola işıq salan materialların dərcinə başlayırıq. Güman edirik ki, oxucularımız üçün də maraqlı olacaq. Bu baxımdan ilk materialın müəllifi isə "Xalq qəzeti"nin baş redaktorunun birinci müavini Qüdrət Piriyevdir.

*(ardı 5-ci səhifədə)*

## Bərdə görüşü effekti – Qarabağda separatizm üçün aqoniya

**BMT Təhlükəsizlik Şurasının avqustun 16-da Qarabağda humanitar vəziyyətə həsr olunmuş iclasındakı uğursuzluqdan sonra Ermənistan cəmiyyətində isterik durum yaranıb. Bu barədə söhbət açmışdıq.**



Qeyd edək ki, mövcud durumun doğurduğu gərginlik özünü Qarabağdakı separatçı rejim daxilində daha qabarıq tərzdə göstərməkdədir. Rejimin rəhbəri Arayik Arutyunyanla keçmiş "dövlət naziri", hazırda ictimai təşkilat yaradaraq "fəaliyyət" göstərən Ruben Vardanyan arasındakı konflikt artıq hər kəsə məlumdur. İkincinin sosial şəbəkə hesabında birincinin ünvanına səsləndirdiyi sərt və aşağılayıcı fikirlərdən də xəbərdarıq. Vardanyan Arutyunyanı satqınlıqda günahlandırır.

Yada salaq ki, həmin A.Arutyunyan avqustun 16-da, yəni BMT TŞ-nin iclasının keçirildiyi gün geniş müraciət yayımlamışdı. Pafos dolu fikirlərin yer aldığı həmin müraciətdə məntiqi vurğu onun üzərinə qoyulmuşdu ki, BMT TŞ-dəki müzakirə son şansdır. Arayik iclasın uğursuzluğu müqabilində Azərbaycanla razılaşmağın qaçılmazlığına da eyham vurmuşdu.

*(ardı 4-cü səhifədə)*

## Azərbaycan Nicat Abasovdan qələbə gözləyir

**Bakıda keçirilən şahmat üzrə Dünya kubokunda mübarizə aparan Nicat Abasov 3-cü yer uğrunda ilk oyunda ABŞ təmsilçisi Fabiano Karuana üzərində inamlı qələbə qazanıb. Ağ fiqurlarla oynayan şahmatçı 26-cı gedişdə rəqibini təslim olmağa məcbur edib.**

*(ardı 10-cu səhifədə)*



## Min illərin qardaşlığı

Səhifə ⇨ 11

## Gedən getsin, qalan qalsın



Səhifə ⇨ 8

## "Qara qitə" uğrunda mübarizə qızışır



Səhifə ⇨ 10

# Azərbaycan və Özbəkistan prezidentlərinin geniş tərkibdə görüşü



**Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüşü keçirilib. Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Hörmətli Şavkat Miromonoviç, hörmətli qonaqlar, əziz dostlar, sizi Azərbaycanda salamlamağa şadam.

Biz qarşılıqlı fəaliyyətimizin mühüm məsələlərinə dair artıq ətraflı müzakirələr aparmışıq. Bu gün geniş tərkibdə davam edəcəyik.

İlk növbədə, mənim dəvətimi qəbul etdiyinə və Azərbaycana dövlət səfərinə gəldiyinə görə Şavkat Miromonoviçə təşəkkürümü bildirmək istərdim. Özbəkistan Prezidenti seçkilərində qələbədən sonra bunun birinci dövlət səfəri olması bizim üçün xüsusilə sevindiricidir. İlk növbədə, Sizi inamlı qələbə münasibətilə bir daha təbrik etmək və ilk səfərinizi bizim ölkəmizə etdiyiniz üçün təşəkkürümü bildirmək istəyirəm. Biz bunu qardaşlıq və dostluq, Azərbaycana hörmət əlaməti kimi qiymətləndiririk.

Ölkələrimizi qədim tarix birləşdirir və bu təməl qarşılıqlı fəaliyyətin inkişafı üçün əsasdır. Sevindirici haldır ki, bütün istiqamətlərdə əməkdaşlıq çox səmərəli və məhsuldar gedir. Düşünürəm ki, son vaxtlar ölkələrimiz arasında dövlətlərarası münasibətlər ən yüksək səviyyəyə çatıb. Özbəkistana dövlət səfərimi və mənə göstərilən qonaqpərvərliyi məmnunluqla xatırlayıram. Həmçinin demək istəyirəm ki, Özbəkistanın şahidi olduğum sürətli inkişafı, transformasiya, islahatlar, ölkənin Mərkəzi Asiya regionunun güclü sənaye dövlətinə çevrilməsi məndə dərin təəssürat yaratdı.

Əlbəttə, bir çox istiqamətlər üzrə ikitərəfli əməkdaşlıq üçün artıq ciddi baza yaradılıb. Bu, həm Sizinlə təmaslarımız, həm Azərbaycanda, həm də Özbəkistanda və başqa yerlərdə mütəmadi görüşlər, həmçinin dövlət strukturlarının nümayəndələri arasında sıx qarşılıqlı fəaliyyətdir. Onlar da fəal işləyirlər və düşünürəm ki, prezidentlərdən yaxşı nümunə götürürlər. Həmçinin bilirlər ki, Sizinlə danışdığımız kimi, biz bütün qərarların yerinə yetirilməsinin gedişinə nəzarət edəcəyik və bunu da uğurla edirik. Biz bu gün geniş tərkibdə görüşdə, - ötən ay hökumətlərarası komissiyanın iclası olub, – həmçinin beynəlxalq platformalarda, eləcə də energetika, nəqliyyat sahələri üzrə və bütövlükdə iqtisadi qarşılıqlı fəaliyyətdə görülmüş işlər barədə bizə məruzə edəcək nümayəndə heyətlərinin üzvlərinə söz verəcəyik.

Beləliklə, hörmətli Şavkat Miromonoviç, bir daha xoş gəlmisiniz.

* * *

Prezident Şavkat Mirziyoyev çıxış edərək dedi:

– Sağ olun, hörmətli İlham Heydər oğlu. Mən dəvətə, artıq Azərbaycan torpağına ayaq basdığımız andan nümayəndə heyətimizin bütün üzvləri ilə bərabər hiss etdiyimiz belə mehriban, dostcasına və qardaşcasına qəbula görə Sizə bir daha səmimi-qəlbdən təşəkkür edirəm.

Əlbəttə, Siz doğru qeyd etdiniz ki, yenidən Özbəkistan Prezidenti seçildikdən sonra Azərbaycana səfərim təsadüfi deyil. Çünki son 3-4 il ərzində biz Sizinlə birlikdə münasibətlərimizi tamamilə başqa səviyyəyə yüksəltmişik, həmçinin beynəlxalq müstəvidə. Bu, hər yerdə hamı tərəfindən qəbul edilir. Fikrimcə, Azərbaycan ilə strateji tərəfdaşlığın dərinləşdirilmiş həmin vektoru öz real bəhrələrini verir. Həm Azərbaycan, həm də Özbəkistan xalqları bunu görür.

Artıq dediyim kimi, bu il əlamətdar ildir. Çünki Ulu Öndər, Azərbaycanın rəhbəri, Azərbaycan xalqının oğlu Heydər Əliyevin yüzillik yubileyi Özbəkistanda çox yüksək səviyyədə keçirilib. Əlbəttə, bizdə - Özbəkistanda Heydər Əlirza oğlunun xatirəsinə tamamilə fərqli yanaşılır. Əslində, hesab edirəm ki, görülən bütün işləri Özbəkistan xalqı tamamilə başqa cür dəyərləndirir. Onu görən, onunla qarşılaşan, onunla işləyən yaşlı nəsil də bizim Özbəkistan gənclərinə çatdırıblar ki, əslində, Azərbaycanın və Özbəkistanın həyatın həmin çətin anlarında qarşıya qoyulan hədəflərə çatması, Azərbaycan və Özbəkistan rəhbərliyinin bir-birini başa düşməsi, çox şey əldə etməsi üçün Heydər Əlirza oğlu uzun illər əlindən gələni edib.

* * *

Görüşdə xarici işlər nazirləri, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın sədri, energetika, nəqliyyat və kənd təsərrüfatı nazirləri verilmiş tapşırıqlara uyğun olaraq sahələr üzrə məruzələri təqdim etdilər.

Dövlət başçıları əlavə tapşırıqlar verdilər.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında siyasi, iqtisadi, ticarət, sənaye, avtomobil istehsalı, metallurgiya, əczaçılıq, daşımalar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Xüsusilə Azərbaycan ilə Özbəkistan arasında birbaşa aviareyslərin artmasından məmnunluq ifadə olundu, həftədə 15 reysin həyata keçirildiyi bildirildi.

Həmçinin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq məsələləri müzakirə edildi. Qoşulmama Hərəkatına sədrliyin Özbəkistana verilməsi barədə qərarın Bakıda qəbul olunduğu vurğulandı.

***AZƏRTAC***

# Azərbaycan–Özbəkistan sənədləri imzalanıb



**Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Müqavilə"ni imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistan Respublikasının investisiyalar, sənaye və ticarət naziri Laziz Kudratov "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə Özbəkistan Respublikasının Rəqabətin İnkişafı və İstehlakçıların Hüquqlarının Müdafiəsi üzrə Komitəsi arasında əməkdaşlıq haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov və Özbəkistan Respublikasının nəqliyyat naziri İlhom Maxkamov "İcazə blanklarının elektron mübadiləsi üzrə informasiya sisteminin tətbiqi sahəsində əməkdaşlıq haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və Özbəkistan Respublikasının mədəniyyət naziri Ozodbek Nazarbekov "Mədəniyyət sahəsində əməkdaşlıq haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov və Özbəkistan Respublikasının energetika naziri Jurabek Mirzamahmudov "Energetika sahəsində əməkdaşlığın dərinləşdirilməsi haqqında Saziş"i imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov "Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının Katibinin Xidməti ilə Özbəkistan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının Aparatı arasında əməkdaşlıq haqqında Memorandum"u imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov "Azərbaycan Respublikası və Özbəkistan Respublikası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov "Gənclər siyasəti və idman sahələrində əməkdaşlıq haqqında Saziş"i imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında media sahəsində əməkdaşlığın inkişafına dair Yol Xəritəsi"ni imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında hərtərəfli strateji tərəfdaşlığın dərinləşdirilməsinə dair 2023-2024-cü illər üzrə Yol Xəritəsi"ni imzaladılar.

Qeyd edək ki, səfər çərçivəsində ümumilikdə 20 sənəd imzalanıb.

***AZƏRTAC***

# Azərbaycan və Özbəkistan prezidentlərinin mətbuata bəyanatları



**Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli Şavkat Miromonoviç.

Hörmətli qonaqlar, əziz dostlar.

Şavkat Miromonoviç, Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Xoş gəlmisiniz!

Sizin Özbəkistan Prezidenti seçilməyinizdən sonra ilk dövlət səfərini Azərbaycana etməyinizi çox yüksək qiymətləndiririk. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, bizim qardaşlığımızın, dostluğumuzun və Sizin ölkəmizə, xalqımıza münasibətinizin göstəricisidir. Qardaş Özbəkistan xalqı Sizə bir daha böyük etimad göstərib, Özbəkistanın inkişafında Sizin səylərinizə yenə layiqincə qiymət verib. Qardaş ölkə Sizin rəhbərliyiniz altında quruculuq yolu ilə uğurla irəliləyir. Mən Sizin rəhbərliyiniz altında Özbəkistanda ölkənin inkişafı, onun potensialının möhkəmlənməsi, müdafiə qabiliyyətinin güclənməsi, həmçinin beynəlxalq məsələlərdə nüfuzunun artması üçün həyata keçirilən böyük dəyişiklikləri dəfələrlə şəxsən görmək imkanına malik oldum.

Mən ötən il dövlət səfəri və beynəlxalq tədbirlər çərçivəsində üç dəfə Özbəkistanda - Daşkənddə, Səmərqənddə, Xivədə oldum. Bir daha demək istəyirəm ki, Sizin həyata keçirdiyiniz həmin dəyişikliklərin, islahatların nəticələrini əyani şəkildə gördüm. Ona görə də Sizin seçkilərdə qələbəniz tamamilə qanunauyğun idi və qardaş Özbəkistan xalqı ən düzgün seçimi etdi.

Seçkilərdən sonra Sizin ilk dövlət səfərinizi Azərbaycana etməyiniz bir daha bizim üçün böyük şərəfdir və Siz bizə böyük hörmət göstərirsiniz.

Bu gün biz aparılan danışıqlar çərçivəsində məsələlərin geniş spektrini müzakirə etdik. Təkcə onu deyə bilərəm ki, bizim bu gün ünsiyyətimiz üç saatdan çox çəkdi. İstər təkbətək, istərsə də nümayəndə heyətlərinin üzvlərinin iştirakı ilə görüşlər çərçivəsində qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsi istiqamətində bütün nailiyyətlər ətraflı təhlil edildi, eləcə də bütün sahələrdə - beynəlxalq platformalarda birgə fəaliyyətdən, beynəlxalq təşkilatlarda üzvlük çərçivəsində qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsindən başlayaraq, energetika, nəqliyyat, qarşılıqlı iqtisadi fəaliyyət, humanitar məsələlərədək münasibətlərimizin gələcək inkişaf yolları müzakirə edildi və müəyyən olundu. Başqa sözlə desək, biz bu gün görüşlər və danışıqlar çərçivəsində, əslində, münasibətlərimizin inkişafının gələcəyini müəyyən etdik. Artıq əldə edilən nəticələr bizim düzgün yolda olduğumuzu göstərir.

Düşünürəm ki, bu gün bizə nümayəndə heyətlərinin üzvləri tərəfindən qarşıdakı iki-üç ildə gözləntilərimizlə bağlı məruzə olunan məsələlər ölkələrimiz arasında münasibətləri ən yüksək səviyyəyə qaldırmağımızı göstərir. Təsadüfi deyil ki, bu gün imzalanan sənədlərdən biri Ali Dövlətlərarası Şuranın yaradılması barədə müqavilədir. Bu, ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsinin, qardaşlıq münasibətlərinin, eləcə də gündəliyin kifayət qədər geniş olmasının göstəricisidir.

Sənaye kooperasiyası ilə bağlı məsələləri ətraflı təhlil etdik. Ötən ay Şuşada Hökumətlərarası Komissiyanın növbəti iclası keçirildi. Komissiya qarşılıqlı əlaqə məsələlərinin bütün spektrini ətraflı şəkildə təhlil etdi. Enerji sahəsində yaxşı perspektivlər var. Bizim enerji şirkətlərimiz sıx qarşılıqlı fəaliyyətdədir. Biz nəqliyyat-logistika sahəsində yük axınının artmasını, ən əsası isə bu istiqamətdə əməkdaşlıq potensialının genişlənməsini müşahidə edirik. Bu gün biz bütün istiqamətlər üzrə uğurlu qarşılıqlı fəaliyyəti uzun illər üçün öncədən müəyyənləşdirəcək məsələləri müzakirə etdik.

Bu ay Azərbaycanda Özbəkistanın Mədəniyyət Günləri böyük uğurla keçdi. Azərbaycan tamaşaçıları qardaş xalqın nümayəndələrinin yüksək ustalığına və istedadına bir daha əmin oldular. Biz razılığa gəldik ki, bu cür tədbirlər müntəzəm keçirilsin, çünki bizim qarşılıqlı fəaliyyətimizin təməlini məhz nəhəng mədəni zəmin təşkil edir.

Xalqlarımız arasında qardaşlıq münasibətləri çoxəsrlik tarixə malikdir, bütün dostluq və qardaşlıq dövrü ərzində biz bir-birimizin yanında olmuşuq və bir-birimizi dəstəkləmişik.

Sabah biz Şavkat Miromonoviçin şəxsi təşəbbüsü ilə Azərbaycana bağışladığı məktəbin açılışında iştirak edəcəyik. Bu, Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsidir və biz bu qardaşlıq, həmrəylik, dəstək jestini çox yüksək dəyərləndiririk. Digər tərəfdən deyərdim ki, bu məktəb, əslində, bir təhsil sarayıdır. Mən may ayında Füzulidə olarkən tikintinin gedişi ilə tanış oldum və Özbəkistanın bizə təqdim etdiyi həmin dost töhfəsinin miqyasını əyani şəkildə gördüm. Məktəb özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyır və əminəm ki, bu, təkcə təhsil ocağı deyil, eləcə də bizim dost və qardaşlığımızın daha bir mərkəzi olacaq.

Bir neçə gün, daha dəqiq desək, dörd gün bundan əvvəl Füzuli şəhərinin ilk sakinləri - keçmiş köçkünlər doğma yurdlarına qayıdıblar. Artıq yaxın zamanlarda - azı bir aydan sonra uşaqlar Özbəkistandan olan qardaşlarımız tərəfindən hədiyyə edilən məktəbdə oxumağa başlayacaqlar.

Başqa sözlə desək, hətta barəsində indi danışdıqlarım bizim münasibətlərin xarakterini göstərir. Bu gün bizim müzakirə etdiyimiz əməkdaşlığın bütün istiqamətləri haqqında danışmağa ehtimal ki, minimum daha üç saat lazım olacaq. Buna görə də düşünürəm ki, ölkələrimizin təmsilçiləri bu gün də, sonra da artıq ünsiyyət prosesində, o cümlədən mətbuat nümayəndələri ilə də təəssüratlarını bölüşəcəklər. Həmçinin Azərbaycan və Özbəkistan ictimaiyyəti bugünkü danışıqların nəticəsini həm Azərbaycanda, həm də Özbəkistanda layihələrin praktiki icrasında görəcəklər. Əminəm ki, bir müddət əvvəl 500 milyon dollar nizamnamə kapitalı ilə yaradılan Birgə İnvestisiya Fondu bu məbləği çox sürətlə sərf edəcək və biz onu artırmalı olacağıq.

Bütün bunlar yenə də ondan xəbər verir ki, biz doğru yoldayıq, prezidentlərin qarşıya qoyduqları vəzifələr yerinə yetirilir. Şavkat Miromonoviçlə bir neçə il əvvəl razılığa gəldiyimiz kimi, biz verilən bütün tapşırıqların icrasına mütəmadi rejimdə nəzarət edirik. Bu, uğurun əsas şərtlərindən biridir.

Hörmətli Şavkat Miromonoviç, bir daha Sizi salamlamaq, mənim dəvətimi qəbul edib Azərbaycana səfərə gəldiyiniz üçün təşəkkür etmək istəyirəm. Biz Sizinlə mart ayında Bakıda, Qoşulmama Hərəkatının Zirvə toplantısında görüşmüşük, ilin sonunadək mən yenə Özbəkistana getməyi planlaşdırıram. Beləliklə, biz müntəzəm görüşəcək və ölkələrimizin ictimaiyyətini yeni nailiyyətlər barədə məlumatlandıracağıq. Sağ olun.

* * *

Sonra Özbəkistan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Şavkat Mirziyoyevin bəyanatı

– Hörmətli İlham Heydər oğlu.

Əvvəlcə bizim üçün qardaş ölkə olan Azərbaycana səfərə dəvətinizə görə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istəyirəm. Siz, əlbəttə, bizim siyasi istiqamətimizin seçimini və strategiyasını düzgün qeyd etdiniz. Azərbaycan bizim üçün münasibətlərin tamamilə yeni mərhələyə yüksəldiyi ən yaxın ölkələrdən biridir. Mən birinci dövlət səfərimi edirəm, çünki biz həqiqətən də iki yaxın xalq, iki yaxın ölkəyik və şəxsi münasibətlərimiz əlaqələrimizi tamamilə yeni mərhələyə yüksəldib. Bu gün həm Özbəkistan, həm də Azərbaycan xalqları bu münasibətlərlə fəxr edir və bizim əlaqələrimizin, səfərlərimizin nəticələrini görürlər. Bu gün Özbəkistanın xarici siyasət vektoru da bizim proqramı praktiki olaraq zənginləşdirməyə istiqamətlənib.

Yaxın qonşular, yaxın ölkələr kimi biz Azərbaycanın uğurları və Sizin rəhbərliyinizlə həyata keçirilən müdrik siyasət ilə həmişə fəxr edir, onlara sevinirik. Həqiqətən Özbəkistanda Azərbaycanın beynəlxalq arenada nüfuzunu, ümumilikdə son illər ərzində bütün sahələrdə uğurlarını izləyir və qürur duyurlar. Belə ki, yaxın qonşular kimi çox sevinir və uğurlar arzu edirik. Bizim bugünkü səfərimiz də Sizinlə nəzərdə tutduğumuz və apardığımız çoxsaylı, ardıcıl dialoqun davamıdır. Siz də qeyd etdiyiniz kimi, bizim hər bir görüşümüz, hər bir danışığımız bugünkü çox ciddi çağırışlara ümumi baxışımız fonunda bizə ortaq məxrəcə gəlməyə imkan verir ki, iqtisadiyyatlarımız, xalqlarımız, həmçinin regionlarımız bu çağırışlardan ən az itki ilə çıxsın.

Odur ki, mən fürsətdən istifadə edərək, hörmətli media nümayəndələrinə İlham Heydər oğlunun indi dediklərini çatdırmaq istəyirəm. Əslində, bütün məsələlərlə bağlı sizə səmimiyyətlə, doğru şəkildə demək istərdim. Burada media nümayəndələri var, onlar bilirlər ki, biz bunu nadir ölkələrlə çox uzun müddət, ciddi şəkildə müzakirə edirik, çünki dediyimiz hər sözün, hər bir istiqamətin arxasında – siyasət, iqtisadiyyat, nəqliyyat, mədəni-humanitar sahələrdə də bizim arxamızda insanlarımız, xalqlarımız dayanır. Onlar görürlər, çalışırlar, sevinirlər. Bizdə hər bir istiqamət üzrə çox yaxşı perspektivlər mövcuddur.

Əgər vaxt olsaydı, İlham Heydər oğlunun dediyi kimi, biz sizə bütün layihələrdən danışardıq. Amma məncə, əslində, hələ çox görüşlərimiz olacaq, onlar barədə sizə söhbət açacağıq. Bunlar münasibətlərin fərqli səviyyəsini, sənayenin lokallaşdırılmasının, nəqliyyat logistikasının müxtəlif səviyyələrini təmin etmək üçün çox ciddi layihələrdir. Çünki bu gün bizim üçün, Özbəkistan üçün iqtisadiyyatımızda ümumilikdə nəqliyyat sahəsi çox ciddi komponentdir. Biz isə öz istiqamətimizi ən yaxın ölkə olan Azərbaycanla müəyyən edirik və hesab edirəm ki, bu, yeganə düzgün qərardır. Əgər bu gün bizim razılaşdığımız hər şey yerinə yetirilsə, həm Özbəkistan, həm də Azərbaycan iqtisadiyyatları üçün uğurlu olacaq.

İlham Heydər oğlunun dediyi kimi, bizim yaratdığımız Ali Dövlətlərarası Şura ən yüksək etimad səviyyəsi və razılığa gəldiyimiz həmin strateji istiqamətlərin ən yüksək səviyyədə davamıdır. Beləliklə, düşünürəm ki, mən ölkə Prezidenti seçildikdən sonra ilk səfərimdən çox məmnunam. Fikrimcə, bizim istiqamət vektorumuzu bu gün Özbəkistan xalqı da görür. Onlar əlbəttə ki, bizə qiymət verirlər. Hansı qiyməti? Çox müsbət qiyməti, çünki bizdə olduqca çox istiqamət var və bütün bu istiqamətlər qəbul etdiyimiz 2030-cu ilin strategiyasına uyğundur, onlar bizim strategiyaya əlavə olunur. Bu baxımdan da biz İlham Heydər oğlu ilə olduqca çox əlavə məsələlər üzrə qeyri-standart qərarlar qəbul etdik və bu qərarlar bizim planlarımızın reallaşmasının sürətlənməsinə kömək edəcək.

Bu gün İlham Heydər oğlu qeyd etdi, mən də xüsusi vurğulamaq istərdim ki, kütləvi informasiya vasitələri bilsinlər, Azərbaycanda Özbəkistan Mədəniyyəti Günlərinin keçirilməsi tarixləri arasında fasilə, - mən rəqəmləri demək istəmirəm, – kifayət qədər böyük idi. Fikrimcə, bu rəqəmləri sizin çoxunuz bilirsiniz.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan və Özbəkistan prezidentlərinin mətbuata bəyanatları

*(əvvəli 2-ci səhifədə)*

Bilirsiniz ki, bundan sonra bizim 200-dən çox mədəniyyət, incəsənət nümayəndəsinin, ziyalıların əksəriyyətində tamamilə başqa əhval-ruhiyyə yaranıb. Çünki onlar gördülər ki, Azərbaycan İlham Heydər oğlunun rəhbərliyi ilə son illər ərzində necə inkişaf edir və hansı problemlər həll olunur, bizim nə qədər çox ortaq dəyərlərimiz var, tarixi köklərimiz bir-birinə nə qədər çox yaxındır. Bu baxımdan fikrimcə, bu, bizim mədəni-humanitar əməkdaşlığımızın olduqca böyük vüsətinin başlanğıcıdır. Bu gün biz İlham Heydər oğlu ilə razılığa gəldik ki, əlaqələrimizin ayrıca proqramında hər il üçün nə edəcəyik. Sadəcə olaraq, insanlar bilməlidirlər ki, il ərzində bizdə belə mədəniyyət mübadiləsi olacaq. Sizə demək istəyirəm ki, bizdə heç vaxt belə olmayıb.

Nəqliyyat. Əgər aviasiya haqqında danışsaq, o halda bizdə həftədə 15 reys həyata keçirilir, biz isə bunu daha da artırmaq barədə razılığa gəldik. Bu, nəyi göstərir? Bir-birimizə daha çox gedib-gəldikcə biz tanıyırıq, öyrənirik, görüşürük, yaxınlaşırıq.

Bir daha demək istəyirəm, mən məmnunam və mənə çox xoşdur ki, biz İlham Heydər oğlu ilə sizin dildə, necə deyərlər, eyni dalğadayıq. Biz həmişə olduğu kimi, bu dəfə də qəti razılığa gəldik və komandamızın üzvlərinə, yəni, nümayəndə heyətlərinin üzvlərinə tapşırıq verdik ki, nəzarət çox ciddi olacaq. Əgər bu nəzarət olmasaydı, haradasa biz cüzi nəzarət edə bilməsəydik və ya hər dəfə soruşmasaydıq, o halda bugünkü kimi nəticələrimiz olmazdı. Əslində, bir az vaxt keçəcək, biz bütün istiqamətlərdə keyfiyyətcə tamamilə yeni səviyyəyə çıxacağıq.

Bir daha deyirəm, bugünkü görüşümüzə şadam, ondan məmnunam. Bütün azərbaycanlı dostlarımıza daha çox görüşməyimizi arzulayıram. Hörmətli İlham Heydər oğlu ilə görüşlərimiz isə bizim razılaşmalarımıza yalnız müsbət təsir göstərəcək və onlar öz həllini tapacaq. Öz növbəmdə bunu demək istəyirəm və kütləvi informasiya vasitələri bilməlidir ki, mən hər görüşümüzdən məmnun qalıram, çünki onların nəticəsi çox böyükdür.

İlham Heydər oğlu, bir müddət keçəcək bizə tərcüməçi lazım olmayacaq və ya burada iki dildə danışmağa ehtiyac qalmayacaq. Düşünürəm ki, biz eyni köklərə malikik və bir-birimizlə ortaq dildə danışacağıq.

İlham Heydər oğlu, Sizə səmimiyyətlə demək istəyirəm, Azərbaycan dilində danışanda mən Sizi çox gözəl başa düşürəm. Mən Zirvə toplantılarında özbək dilində çıxış edəndə İlham Heydər oğlu da mənə deyir: “Mən Sizi tam başa düşürəm”. Beləliklə, bu, çox şey deməkdir, biz bunu bilməli, qiymətləndirməli, sevməli və təbliğ etməliyik.

***AZƏRTAC***

# Azərbaycanın və Özbəkistanın birinci xanımlarının görüşü olub



Avqustun 22-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşü olub.

***AZƏRTAC***

# Ulu öndər Heydər Əliyevin məzarını ziyarət



**Azərbaycan Respublikasında dövlət səfərində olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva avqustun 22-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Ulu öndərin abidəsi önünə əklil qoydu.

Ümummilli liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoyulub.

***AZƏRTAC***

# Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycan Respublikasında dövlət səfərində olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva avqustun 22-də Şəhidlər xiyabanını ziyarət ediblər.**

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Şavkat Mirziyoyev “Əbədi məşəl” abidəsinin önünə əklil qoydu.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

***AZƏRTAC***

# Ali qonağın şərəfinə dövlət ziyafəti





**Avqustun 22-də Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin və xanımı Ziroatxon Mirziyoyevanın şərəfinə dövlət ziyafəti verilib.**

Ziyafət zamanı təşkil olunan konsertdə Azərbaycan və Özbəkistan musiqilərindən nümunələr səsləndirilib.

***AZƏRTAC***

# Özbəkistanın birinci xanımı Heydər Əliyev Mərkəzində



**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin xanımı Ziroatxon Mirziyoyeva avqustun 22-də Heydər Əliyev Mərkəzində olub.**

Mərkəzin direktoru Anar Ələkbərov Ziroatxon Mirziyoyevaya dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verib.

Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr, həmçinin Azərbaycan tarixinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə təbliğinə xidmət edir.

Qonaq “Azərbaycan inciləri” sərgisi ilə də tanış olub. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı eksponatlar nümayiş olunur. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

“Mini Azərbaycan” sərgisi ilə tanışlıq zamanı isə diqqətə çatdırılıb ki, bu ekspozisiyada Bakıda və Azərbaycanın regionlarındakı tarixi memarlıq abidələri və bir sıra müasir binaların maketləri nümayiş etdirilir.

Özbəkistan Prezidentinin xanımı Heydər Əliyev Mərkəzində, eyni zamanda, “Musiqi alətləri: birlik və müxtəliflik” adlı sərgi ilə tanış olub.

Qeyd olunub ki, burada Heydər Əliyev Fondunun müxtəlif mənbələrdən topladığı unikal kolleksiya – XVIII-XX əsrlərə aid 200-dək musiqi aləti sərgilənir.

Bunlar 31 ölkəyə - Azərbaycan, Albaniya, Bolqarıstan, Çin, Dağıstan (Rusiya Federasiyası), Əfqanıstan, Əlcəzair, Gürcüstan, Hindistan, İndoneziya, İraq, İran, Kipr, Qazaxıstan, Qırğızıstan, Liviya, Macarıstan, Makedoniya, Mərakeş, Misir, Monqolustan, Özbəkistan, Pakistan, Rumıniya, Serbiya, Suriya, Tacikistan, Türkiyə, Türkmənistan, Yəmən və Yunanıstana aid musiqi alətləridir.

Sərgidə Azərbaycan musiqi mədəniyyəti və tarixinə də geniş yer verilib. Ekspozisiyada 50-dək milli musiqi aləti təqdim edilir.

Özbəkistanlı qonaq “Kukla incəsənətdə” sərgisi ilə də tanış olub. Diqqətə çatdırılıb ki, burada nümayiş etdirilən sənət əsərlərinin əksəriyyəti tək nüsxədə hazırlanıb və yüksək bədii dəyərə malikdir. Həmin əsərlərin çoxu beynəlxalq kukla festivalları və biennalelərində qalib olub.

Sonra Özbəkistan Prezidentinin xanımı “Azərbaycan xalçası - ilmələrin rəqsi” adlı xalça kolleksiyasına baxıb.

Məlumat verilib ki, Azərbaycanda xalçaçılıq sənəti əsrlər boyu xalqın məişət və mədəniyyətinin ayrılmaz hissəsi olub və bu günümüzə qədər gəlib çatıb.

Kolleksiyada “Yaranış”, “Şikargah”, “Xan ovu”, “Cəng və barış”, “Bəndi-rumi”, “Şəbəkəli”, “Adəm və Həvva, “Ağaclı”, “Narlı“, “Göllü”, “Ləçək-turunc”, “Dörd fəsil”, “Tağlı”, “Cəmadət” xalçaları, “Cənnət quşları” və “Cənnət bağı” dəstxalı - gəbələri kimi bənzərsiz sənət nümunələri qonağın marağına səbəb olub.

Özbəkistan Prezidentinin xanımına, həmçinin “Azərbaycan xalçası - ilmələrin rəqsi” kolleksiyasına daxil olan əsərlər barədə ətraflı məlumat verilib.

Daha sonra qonaq Heydər Əliyev Mərkəzinin Auditorium zalında olub. Bildirilib ki, bura müxtəlif tədbirlərin – konfrans, simpozium, forum, konsert və s. keçirilməsi üçün ideal məkandır.

Ziroatxon Mirziyoyeva Mərkəzdə 1969-cu ildən 2003-cü ilədək Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillərə baxıb.

Sonda Özbəkistan Prezidentinin xanımı xatirə kitabına ürək sözlərini yazıb.

Qonağa “Azərbaycan xalçası – ilmələrin rəqsi” adlı kitab hədiyyə olunub.

***AZƏRTAC***

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev avqustun 22-də Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Şavkat Mirziyoyevi və xanımı Ziroatxon Mirziyoyevanı hava limanında Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***

# Bərdə görüşü effekti – Qarabağda separatizm üçün aqoniya

## Arayik-Ruben-Karen-David qarşıdurması, yaxud qondarma rejim daxilindəki ziddiyyətlərə baxış

*(əvvəli 1-ci səhifədə)*

BMT-də nəinki uğursuzluq, hətta fiasko yaşandıqdan sonra A.Arutyunyanın istefaya gedəcəyinə dair fikirlər yayıldı. Əslində, bunu onun özü demişdi. Lakin sonradan "postunu" tərk etmək istəmədiyi üzə çıxdı. Nəticədə Vardanyan linç aparatını işə saldı. İndi görünən odur ki, Rubenin sözdə mühakiməsi konkret əməl müstəvisinə keçib. Artıq bunun ilk işartıları var. Hərbi formalı bir qrup şəxs qondarma rejimin parlamentinə soxulub. Vəziyyəti dramatik şəklə gətirən isə Arayikin partiyasının onun istefa verməyəcəyini açıqlamasıdır. Qurum bildirib ki, əgər Arutyunyan istefa versə, "dövlətçilik" (?) təhlükə altına düşəcək...

Əlbəttə, təhlükə qismi ilə bağlı Arayikin tərəfdarlarına haqq qazandırmaq mümkündür. Ümumən, separatçı rejimi aqoniyanın gözlədiyi aşkardır. Çünki həm rejim, həm də onun himayədarı olan Ermənistan iqtidarı BMT TŞ-də özlərinin, necə deyərlər, sonuncu güllələrini atsalar da, nəticə əldə edə bilmədilər. Nəticəyə ümid bəsləyən separatçıların Azərbaycanın təmsilçiləri ilə Qarabağın erməni icmasının nümayəndələrinin Yevlaxda nəzərdə tutulmuş görüşünü pozduqları da məlumdur. Bundan sonrası ya bölgədən rədd olub getməkdir, ya da Azərbaycanın qoyduğu şərtləri qəbul etmək. Şərt isə çox sadədir: Bakının yurisdiksiyasını tanımaq, Qarabağ ermənilərinin reinteqrasiyası.

Görünür, hazırda separatçı rejimdəki konflikt də məhz bu xüsusdadır. Bərdədə Azərbaycanın təmsilçiləri ilə Qarabağın erməni icmasının nümayəndələrinin təması perspektivinin aktuallaşdığı bir zamanda belə ziddiyyətli məsələlərin ortaya çıxması onu deməyə əsas verir ki, Yevlax görüşünün reallaşmasını istəməyənlər indi də eyni hərəkətlərini Bərdə təması ilə bağlı da gerçəkləşdirməyi düşünürlər. Ona görə də, daxildə çəkişmələrə start veriblər. Hər halda hərbi geyimli şəxslər qondarma parlamentə boş yerə soxulmamışdılar. Yeri gəlmişkən, faktı "Ədalət" adlı saxta fraksiyanın "deputatı" Metakse Akopyan da təsdiqləyib. Amma durum bir qədər fərqlidir. Fərqlilik onu deməyə əsas verir ki, separatçılar ikili oyuna baş vurublar.

Diqqət yetirək, qondarma parlamentdə insident törədən Karen Matevosyan adlı biridir. Onun Qarabağ könüllülərinin rəhbəri olduğu deyilir. Bu adam "spiker" David İşxanyandan A.Arutyunyanın təhqirinə görə hesab sorur. Guya, "dövlət"in rəmzinə – "prezidentə" qarşı nalayiq rəftar yolverilməzmiş. Sən demə, Arayikin təhqirə məruz qalmasına etirazını sosial şəbəkələrdə bildirən şəxslərə qarşı da təhdid mesajları gəlirmiş. K.Matevosyan "Facebook"dakı canlı yayımında xəbərdarlıq edir: təhdidlər dayanmayacaq. Sual olunur: Karen təhdidlərin dayanmayacağını haradan bilir? Daha bir sual: Arutyunyanı təhqir edən kimdir? Cavab birmənalıdır: Vardanyan.

Deməli, daşlar yerinə oturmağa başlayır. İlk növbədə, K.Matevosyanın peyda olması reallığına diqqət yetirək. Bu adam indiyədək niyə görünmürdü? Heç şübhəsiz, o, Ruben tərəfindən ortaya atılıb. Matevosyanın pafoslu bəyanatı, əslində, Arayiki müdafiə etməyə hesablanmayıb. O, sadəcə, Arutyunyanın indi tutduğu "prezidentlik" postunun dövlətçilik baxımından əhəmiyyətini qabardır. Karenin "təhdidlər dayanmayacaq" fikri isə Azərbaycanla danışıqlara getmək istəyənlərə cəbhə açılmasıdır. Heç şübhəsiz, məqsəd gözlənilən Bərdə görüşünü pozmaqdır. Axı, artıq sözügedən görüşə hazırlıqlar gedir. Məsələn, "Faktİnfo" adlı erməni



xəbər resursu bildirir ki, bu məqsədlə daxildə komanda da yaradılıb.

İlk baxışdan təəssürat yaranır ki, əvvəl istefa verəcəyini deyən, sonra buna getməyən A.Arutyunyan və onun komandası reinteqrasiyanın əleyhinə çıxırlar. Əlbəttə, demək olmaz ki, separatçı rejimdə kimlərsə məsələyə səmimi yanaşırlar. Hər bir halda, Azərbaycanla danışıqlara getmək məcburi nikah kimi bir şeydir. Bir qədər əvvəl də dedik ki, BMT-də separatçıların və onların dəstəkçisi İrəvanın sonuncu gülləsi lülədən çıxdı və ... hədəfə yaxın getmədi.

Bu dolaşıq labirintdə Arayik başa düşür ki, onun özünün şəxsən heç bir çıxış yolu yoxdur. Yəni, Azərbaycan nümayəndələri Arutyunyanla bir masa arxasında əyləşməyəcəklər. Gec-tez getməlidir. Getmək istədi də. Ancaq Arayikin üzərinə düşən bir missiya var və o, bu missiyanı reallaşdırmağa borcludur. Başqa sözlə desək, saxta hakimiyyətini səssiz-səmirsiz təhvil verməlidir. İndiki halda, onun istefası sakitliyi pozur və Vardanyan tərəfin aktivləşməsinə səbəb olur. Belə bir durumda Azərbaycanın sərt addımlara əl atması qaçılmaza çevriləcək.

Bəli, ölkəmiz sərt davransa, Arayiki təhlükəli durum gözləyəcək. Vardanyanın Rusiya sülhməramlılarına arxayın olub, ağzına gələni danışması, guya, vəziyyətlə barışmadığını bildirməsi mümkündür. Pis halda sülhməramlılar onu bölgədən çıxaracaqlar. Arutyunyanın isə belə bir konfortu yoxdur. Bakı separatçıbaşının vəziyyəti gərginləşdirib aradan çıxmasını ona bağışlamayacaq. O bunu yaxşı anlayır və ona görə vəzifəsində qalmağa qərar verir. Matevosyan isə Arayikin "prezident" nüfuzu üzərinə oyun oynayaraq durumu gərginləşdirməkdədir. Vardanyan özünün qurduğu "ssenarinin" necə işlədiyini sakitcə seyr edir. Çox güman, Matevosyanın qondarma parlamentin sədri İşxanyandan hesab sorması səhnəsinə baxıb gülür də.

Nəzərə alaq ki, Ermənistanın BMT TŞ-də çıxartdığı Qarabağda humanitar böhran şousunun iflasından sonra bölgəyə humanitar yardımların Ağdam-Xankəndi yolu vasitəsilə daşınması məsələsi gündəmə gəlib. Yəni, həm bu, həm də Bərdədə görüş aktuallaşıb. Hər iki məsələ faktiki olaraq, Azərbaycanın yurisdiksiyasının qəbulu anlamını verir.

Başqa bir yandan, Vardanyan üçün İşxanyanın dəstəsi də təhlükədir. Hər halda Bakı ilə danışıqlarda iştirak edəcək ən az günahlı kəsim bu dəstənin sırasında cəmləşib. Matevosyan Vardanyanın əli ilə indi həmin kəsimi təhdid edir. Mövcud anlamda "Faktİnfo" internet resursunun istinad etdiyi mənbənin iki çıxış yolundan birinin Arayikin təcili istefasını, digərinin isə Ağdam vasitəsilə Qarabağa ərzaq tədarükünün başlanmasını görməsi dolaşıq durum yaradır. Yuxarıda vurğuladıqlarımızı nəzərə alsaq, bu iki məsələ bir-birindən fərqlənir. Tam aydındır ki, ya Bakının şərtlərini ümumən qəbul etməyənlər var, ya da başqa çıxış yolunun olmadığını düşünənlər. Birinci tərəfi Vardanyan təmsil edir, ikinci tərəf isə müəmmadır. Əlbəttə, ilk baxışdan müəmmadır. Üzdə olan Rubenlə Arayikdir və qismən İşxanyan.

Sonda söylədiklərimizə yekun vuraraq bildirək ki, ümumən baş verənlər Qarabağdakı separatçı rejimin son çırpıntılarıdır. Separatçılar sanki vannada qayıq düzəldib üzürlər və hesab edirlər ki, bu, müqavimətdir. Ermənistanın rəhbərliyi və siyasi elitasının təmsilçiləri də eyni ağıldadırlar. Hər bir halda, əllərini qollarını sallayıb, suları süzülə-süzülə gələcəklər. Hələlik, bu gəlişdə müəyyən perspektiv motivi qalıb. Nəzərə alaq ki, suyu süzülmüş halda gəlmək, yalvarmaq üçün gəlməkdən daha yaxşıdır.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# Uğursuzluğa məhkumların xam xəyalları

## Ararat Mirzoyanın sərsəm açıqlamaları İrəvanın pozuculuq fəaliyyətindən əl çəkməyəcəyini göstərir

**İstər regional platformalarda, istərsə də beynəlxalq müstəvidə ard-arda uğursuzluqla üzləşən, layiq olduqları cavabları alan Ermənistan rəhbərliyi siyasi destruktivlik xəttini davam etdirir. Hər vəchlə dinc danışıqların vaxtını, sülh sazişinin imzalanmasını uzatmağa çalışan İrəvan, az qala, hər gün Azərbaycanın ünvanına həqiqətdən uzaq, dezinformasiyaya söykənən yeni bəyanatlar, "ittihamlar" səsləndirməkdən yorulmur.**

Xəbər verildiyi kimi, Belçikanın Xarici işlər naziri Hadija Labibin Cənubi Qafqaza səfəri başlayıb. O, artıq İrəvanda Ermənistan XİN-in başçısı Ararat Mirzoyanla görüşüb. Erməni mediasının məlumatına görə, görüşdən sonrakı mətbuat konfransında A.Mirzoyan deyib ki, diskussiyanın mərkəzində, digər məsələlərlə yanaşı, "Dağlıq Qarabağda Azərbaycanın qeyri-qanuni şəkildə Laçın dəhlizini (?) bloklaması səbəbindən yaranan və dərinləşməkdə olan humanitar böhran" mövzusu olub. Hayastanın baş diplomatı bununla bağlı artıq çeynənmiş "arqumentlərini" bir daha təkrarlayıb: "2022-ci ilin dekabrında Azərbaycan Laçın dəhlizini (?) bağlayanda biz Avropa İttifaqının üzvlərinə, o cümlədən Belçikaya müraciət etmişdik. Bütün bunlara, eləcə də Beynəlxalq Məhkəmənin 6 iyul tarixli qərarına baxmayaraq, Azərbaycan dəhlizi açmayıb. Əlbəttə, buna digər hadisələrdən ayrıca baxmaq olmaz. Biz daim xəbərdarlıq etmişik ki, Azərbaycanın hərəkətlərinin əsasında Dağlıq Qarabağı etnik təmizləməyə məruz qoymaq kimi açıq siyasət dayanır".

Belə məlum olur ki, Ararat Mizoyan ya bu faktı unudub, ya da onu xatırlamaq istəmir. Onda yadına salmağa dəyər. Məgər Ermənistanın baş naziri suveren Azərbaycanın, Qarabağ daxil olmaqla, ərazi bütövlüyünü tanıdığını Avropanın ən yüksək tribunasından bəyan və etiraf etməyibmi? De-fakto edib, həm də iki dəfə. Əgər belədirsə, onda niyə Azərbaycanın daxili işlərinə qarışırsınız? Çəkilin kənara, daxili məsələmizi özümüz həll edəcəyik.

Belçikalı həmkarı ilə Dağlıq Qarabağdakı (?) situasiyanın hədsiz dərəcədə neqativ və qarşısıalınmaz mümkün fəsadlarını, məsələ ilə bağlı BMT Təhlükəsizlik Şurasının təcili toplantısını, beynəlxalq tərəfdaşlara və strukturlara müraciətləri ətraflı müzakirə etdiyini bildirən Mirzoyanın sözlərinə görə, görüşdə, həmçinin qonağın diqqətinə son günlər Azərbaycanın Dağlıq Qarabağda (?) atəşkəs rejimini mütəmadi surətdə pozduğu, Ermənistanın dövlət sərhədindəki mövqelərini atəşə tutduğu və bu barədə, hətta, Aİ-nin ölkəsindəki missiyasının məlumat yaydığı çatdırılıb.

A.Mirzoyan mətbuat konfransında onu da qeyd edib ki, Azərbaycan 10 noyabr 2020-ci il tarixli bəyanatın bəndlərini daim pozur. Hay diplomat feyk-açıqlama ilə kifayətlənməyib, bir az da irəli gedərək söyləyib: "Bakı erməni hərbi əsirlərin və saxlanılmış dinc sakinlərin qaytarılması kimi humanitar öhdəliyinə də əməl etmir".

* * *

Mətbuata açıqlamasının sonunda isə Ermənistan XİN-in başçısı əməlli-başlı "gül vurub": "Ermənistan tərəfi bizim beynəlxalq tərəfdaşlarımızın siyasi iradə göstərərək Azərbaycanın antiinsani və müharibə ritorikalı, destruktiv hərəkətlərini dəyişməsindən ötrü effektli addımlar atacağını gözləyir".

Hayastan rəhbərliyi yenə öz ampluasına uyğun "gedişlər" edir, Şər maşını yalan və iftiraları dövriyyəyə buraxmaqla məşğuldur. Nikol Paşinyanın yaratdığı və özünün də girovuna çevrildiyi vəziyyət qarşıdakı üçtərəfli görüşdə sülhlə bağlı müsbət nəticələrin əldə olunmasına bəslənənən ümidləri xeyli dərəcədə zəiflətdi. Ona görə ki, Paşinyan və onun diplomatiya idarəsi bu mövqeyi ilə Azərbaycanla sülh müqaviləsi imzalamaq iradəsində olmadığını nümayiş etdirdi. Əlavə olaraq, indi Ermənistan XİN-in "uzaqgörən və strateji" addımlardan xəbər verən bəyanatı danışıqların növbəti raundunda hər hansı irəliləyişin əldə olunmayacağından xəbər "müjdələyir".

Elə Ermənistan XİN-in mətbuat katibi Ani Badalyanın jurnalistlərin suallarını cavablandırarkən dedikləri də bunu söyləməyə əsas verir. O, BMT Təhlükəsizlik Şurasının 16 avqust tarixli iclası və ümumilikdə, müzakirələrin nəticələri ilə bağlı reallıqdan uzaq, ictimai rəylə manipulyasiyaya hesablanmış bir sıra



fikirlər səsləndirib.

"Azərbaycanın ərazilərinin işğalı nəticəsində qəbul edilmiş BMT Təhlükəsizlik Şurasının qərarlarını 30 ilə yaxın bir dövrdə heçə sayan və 44 günlük müharibədən sonra beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqda davam edən Ermənistan tərəfi son zamanlar yalnız Təhlükəsizlik Şurası ilə məhdudlaşmayan çoxsaylı manipulyasiyalarla əsassız addımlar atmaqdadır".

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ani Badalyanın açıqlamasına şərhində bildirib.

Rəsmi İrəvanın məsuliyyətsiz və məntiqsiz addımlarının mütəmadi şəkildə uğursuzluğa düçar olduğuna, xəyal etdikləri heç bir nəticəni əldə edə bilmədiklərinə diqqəti yönəldən A.Hacızadənin sözlərinə görə, Ermənistan tərəfi müxtəlif bəhanələrlə və uzun-uzadı əsassız açıqlamalarla üzləşdiyi uğursuzluqları müxtəlif yalanlarla əsaslandırmağa, özünün pozuculuq fəaliyyətinə bəraət qazandırmağa çalışır: "Ermənistan XİN öz cəmiyyətində həqiqətə uyğun olmayan gözləntilər formalaşdırmaq və yalan dolu izahatlar vermək əvəzinə, beynəlxalq hüquqa əsaslanmaqla qonşu ölkələrlə münasibətləri normallaşdırmalı və bölgədə sülhə mane olan pozucu fəaliyyətdən çəkinməlidir".

Bakı birinci dəfə deyil ki, İrəvanı özünə heç bir faydası olmayacaq, əksinə, ona ziyan gətirəcək pozuculuq fəaliyyətindən çəkinməyə çağırır. Üstəlik, beynəlxalq təşkilatlara da Hayastan rəhbərliyinə siyasi təzyiq göstərilməsi ilə bağlı dəfələrlə müraciətlər edib.

Nə çağırışları eşidirlər, nə də müraciətlərə reaksiya verirlər. Beş gün bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasındakı çıxışında da BMT Təhlükəsizlik Şurasında aparılmış məlum müzakirələrin məğzini, üzv dövlətlərin səfirləri tərəfindən səsləndirilən mövqeləri açıq-aşkar təhrif etdi. Onun bu yolla daxili elektoratın "siyasi qaynarlığını" soyutmağa çalışması, ictimai rəylə manipulyasiya cəhdləri bir həqiqəti ortaya qoyur: Ermənistan üzləşdiyi siyasi, hərbi, ideoloji uğursuzluqla barışmaq istəmir.

Başdan-ayağa yalan, əsassız iddialarla müxtəlif instansiyalara müraciətlər ünvanlayan Ermənistan hakimiyyəti, nəhayət, anlamalıdır ki, bölgədə sülhün və sabitliyin təmin edilməsinin yolu özünə saxtakar dəstəkçilər axtarmaqdan deyil, iki ölkənin qarşılıqlı şəkildə ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıması və bunu sənədlə təsdiqləməsindən keçir. Yəni, bölgədə sülhün, əmin-amanlığın bərqərar olması Azərbaycanla birbaşa, açıq və səmimi konstruktiv danışıqlardan asılıdır.

* * *

Rusiya sülhməramlı hərbi kontingentinin Azərbaycanın suveren Qarabağ iqtisadi rayonunu tərk edəcəyi vaxt uzaqda deyil. Bunu İrəvan da yaxşı anlayır. Açıq demək lazımdır ki, məhz bu səbəbdən Rusiya yenə Ermənistan ordusunun tör-töküntüsünün Qarabağda qeyri-legitim hərəkətlərinə, silahlanmasına, "döyüşə hazırlaşmasına" dəstək olur, ən yaxşı halda bu fəaliyyətə göz yumur.

2025-ci ildən sonra rus sülhməramlılarının Qarabağı tərk edəcəyi hər kəsə məlumdur. Həmin vaxta qədər rəsmi Bakı Qarabağdakı ermənilərlə reinteqrasiya prosesini sürətləndirməyi planlayıb. Azərbaycan o vaxtadək Qarabağın erməni icması ilə normal münasibətlər yaratmağa çalışır. Rəsmi İrəvan isə başağrısına dönmüş "Qarabağ problemi"ni bu yolla çözməyin əvəzinə, Xankəndidəki separatçıları qızışdırır, bununla da sülh prosesinə badalaq vurur.

Azərbaycan Qarabağdakı daşnak-revanşist dəstənin yenidən silahlanmasına imkan verə bilməz. Çünki Bakı çox yaxşı bilir ki, separatçıları yeni hərbi qarşıdurmaya itələyənlərin əsl məqsədi Azərbaycanı Zəngəzur dəhlizi ilə bağlı hədəflərdən yayındırmaq, diqqətini yenidən Qarabağdakı "kriminal ünsürlərə" yönəltməkdir.

Bu gün Ermənistan və onun arxasında kölgələri görünənlərin bölgədə yeritdiyi hiyləgər siyasətin arxasında Cənubi Qafqazda və bundan daha geniş arealda Azərbaycan və Türkiyənin güclənməsinə mane olmaq dayanır. Bəli, problemlər bataqlığına sürüklənmiş müasir Hayastanın bu "missiyası" dünyanın bir sıra güclərinin də əsas maraqlarının kəsişdiyi nöqtədir.

Amma reallıq və həqiqət ondan ibarətdir ki, müstəqil və ciddi qərar qəbul etmək iqtidarında olmayan İrəvan sülhə yönəlik prosesləri sabotaj etməklə yaxın perspektivdə böyük itkilərə məruz qalmaq riskini artırır.

Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, çox təəssüf ki, Paşinyan yenə öz fantaziya və xəyallarından danışmağa başladı. Paşinyan kimi Azərbaycana qarşı absurd ittihamlar səsləndirən Mirzoyanlar, Simonyanlar da, nəhayət, xam xəyallardan əl çəkməli, reallığın gözünün içinə dik baxmalı və nə qədər gec deyil Azərbaycanla sülhə gəlməlidirlər. Əks-təqdirdə onları qarşıda daha böyük uğursuzluq zolağı gözləyir...

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***

# Xalqın bir əsrlik salnaməsi

## Anadilli mətbuatımızın bayraqdarı – “Xalq qəzeti” 104 ildir ki, fasiləsiz çıxaraq oxucuları ilə 30 min 295-ci dəfə görüşə gəlmişdir

*(əvvəli 1-ci səhifədə)*

“Kommunist” (indiki “Xalq qəzeti”) qəzetinin ilk nömrəsi 1919-cu il avqustun 29-da işıq üzü gördü. Adından da göründüyü kimi, “Kommunist” özündən əvvəl çıxan “Dəvət-Qoç”, “Təkamül”, “Yaddaş”, “Hümmət” (1917-1918-ci illər), “Bakı Şurasının Əxbarı” kimi bolşevik qəzetlərinin sırasına qoşuldu. Bu, heç şübhəsiz, Azərbaycan Xalq Cümhuriyyəti dövründə mövcud olmuş demokratik mühitdən qaynaqlanırdı. Nəşrin ilk nömrəsi o dövrün tanınmış marksistlərindən olan Ruhulla Axundovun redaktəsi ilə 4 min tirajla çıxmışdı.

qəzetə millətçilik yuvası damğasının vurulduğu vaxtlar da olmuşdu. Nəşrin elə bir nömrəsi yox idi ki, orada mədəni quruculuqla bağlı materiallar, səhifələr olmasın. “Kommunist”in o dövrün ağır mirası olan savadsızlığa qarşı mübarizədəki mövqeyi isə xüsusi vurğulanmalıdır. “Rədd olsun savadsızlıq!” çağırışı qəzetin səhifələrindən düşmürdü. “Kommunist”in sayları savadsızlığını ləğv edən Azərbaycan fəhləsi və kəndlisinin əlindən düşmürdü.

Mədəni quruculuğun bütün sahələrində ardıcıl mübarizə aparan “Kommunist”in səhifələrindən pərvazlanan hər hansı təşəbbüs tez bir zamanda geniş yayılır, böyük hərəkata çevrilirdi.

*“Xalq qəzeti” mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət “Kommunist” adı ilə nəşr edilən bu qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur.*

*Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında “Xalq qəzeti”nin xidmətləri xüsusi qeyd olunmalıdır. Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişlər.*

*Müstəqilliyimizin qazanılmasından sonra da “Xalq qəzeti” respublikanın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır. Amansız təcavüzkara qarşı apardığımız ədalətli müharibə qəzetin daimi mövzusuna çevrimişdir. Bu gün qəzet müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır...*

**Ümummilli lider Heydər Əliyevin ilk nömrəsinin çapdan çıxmasının 75 illiyi münasibətilə “Xalq qəzeti” redaksiyasının kollektivinə ünvanladığı təbrik məktubundan.**

**25 avqust 1994-cü il**




“Kommunist” Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan iki gün sonra – 1920-ci il aprelin 30-dan özünü sovet quruculuğu ab-havasına kökləyərək fəaliyyət göstərməsinə və partiyanın ideoloji ruporu olmasına baxmayaraq, anadilli nəşrlərimizin bayraqdarına çevrilmişdi. Yaradıcı heyətini genişlənmiş nəşr respublikanın siyasi, iqtisadi və mədəni həyatını güzgü kimi əks etdirməyə başlamışdı. Qəzet Azərbaycan zəhmətkeşlərinin, xüsusən Bakı fəhlələrinin neft sənayesinin bərpasındakı və inkişafındakı böyük əzmkarlıqlarını, fədakarlıqlarını geniş auditoriyaya çatdırmaqla püxtələşmişdi.

“Kommunist”in ilk nömrələrindən başlayaraq, Azərbaycan insanının savadlanmasını, maariflənməsini təbliğ edən mərkəz funksiyasını yerinə yetirməsinin qısqanclıqla qarşılandığı, Azərbaycan dilinin saflığı və təmizliyi uğrunda ilk dəfə geniş mübarizə elan edən məhz “Kommunist” qəzeti olmuşdur. “Dilimizin silahı” adı altında “Kommunist”in buraxdığı əlavələrin bu məsələyə dair onlarca tutarlı məqalənin ana dilimizin inkişafında böyük əhəmiyyəti olmuşdur. Qəzet yeni yaranmaqda olan ədəbiyyatın beşiyi başında durmuşdu. Gənc nasirlər və şairlər məhz “Kommunist”in ətrafında toplaşaraq öz qələmləri ilə xalqa xidmət etməyə başladılar.

Mənsub olduğu siyasi-ideoloji sistemin xarakterindən, toxunduğu mövzuların çeşidindən, əhatə etdiyi coğrafiyasından asılı olmayaraq, bu qəzet oxucusu ilə xalqın doğma ana dilində danışırdı. Təkcə danışmırdı, millətə, ilk növbədə, gənc nəslə Azərbaycan türkcəsini öyrədir və sevdirirdi.

Qəzetin daşıdığı milli ruhlu bu müqəddəs missiyanı böyük şairimiz Səməd Vurğun “Kommunist”in 20 illik yubileyinə həsr etdiyi şeirində xüsusi sevgi ilə nəzmə çəkmişdir:

***Sən göstərdin ayna kimi***
***hər insanın öz üzünü.***
***Mərd yarandın, üzə dedin***
***bu dünyanın hər sözünü.***
***Sənin qəlbin – elin qəlbi,***
***sənin ağzın – elin ağzı,***
***Səndən mərdlik öyrənmişdir***
***ana yurdun oğlu-qızı.***

**“Kommunist”,**
**12 sentyabr 1939-cu il**

Zəngin ədəbi irsimizin toplanması, öyrənilməsi və nəşr edilməsi kimi nəcib bir iş də “Kommunist”in adı ilə bağlıdır. Redaksiya öz ətrafında o zaman Azərbaycanın tanınmış yazıçı və jurnalistlərini toplamışdı. Qəzetdə Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Tağı Şahbazi, Seyid Hüseyn, Məmmədəli Sidqi, Süleyman Məlikov, Şəmsəddin Abbasov, Xəlil İbrahimov və digər təcrübəli qələm sahibləri işləmişlər. Məşhur fırça ustası Əzim Əzimzadə 1922-ci ildən etibarən “Kommunist”in baş rəssamı olmuşdur. Sonradan təqribən əlli il ərzində onu Xalq rəssamı Hüseyn Əliyev əvəz etmişdir.

“Kommunist” qısa bir vaxt ərzində Azərbaycan zəhmətkeşlərinin sevimli qəzeti oldu. 1923-cü ilin dekabrında qəzetin mininci nömrəsinin çıxması respublikada əsl bayrama çevrildi.

Qəzetin xalq arasında populyarlaşması respublikanı o illərdə idarə edən şovinist rus və daşnak erməni rəhbərlərinin diqqətindən yayına bilməzdi. Bu fakt onları bərk narahat edirdi. Qəzetin gündəlik fəaliyyəti diqqətlə izlənilirdi. S.M.Kirovdan sonra Azərbaycanın rəhbərliyinə gətirilmiş Levon Mirzoyanın bu fikirlərini hakimiyyətin “Kommunist” qəzetinə “etibarı”nın göstəricisi hesab etmək olardı. L.Mirzoyan demişdir ki, adının “Kommunist” olmasına baxmayaraq, bu kollektiv müsavatçıların və pantürkistlərin yığnağından ibarətdir. Təmizləmə aparılmalıdır!

Əslində, bu “təmizləmə”dən “Kommunist”in başı bərk ağrıdı. İşçilərin bir çoxu redaksiyadan uzaqlaşdırıldı, qəzetin rəhbərlərindən 5 nəfəri repressiya qurbanı oldu.

Buna baxmayaraq, “Kommunist” öz fəaliyyətini dövrün, zamanın tələblərinə uyğunlaşdıraraq davam etdirirdi. Qəzet Azərbaycan zəhmətkeşlərinin sənayeləşdirmə planının müvəffəqiyyətlə həyata keçirilməsində göstərdiyi hünərə xüsusi diqqət ayırırdı. Qabaqcıl iş üsullarının yayılmasında, zərbəçilik hərəkatlarının genişlənməsində redaksiya səmərəli iş görürdü. “Kommunist” Bakı fəhlələrinin neft beşilliyini



**Şair S.Vurğun əməkçilər arasında**

iki il yarımda yerinə yetirmək uğrunda mübarizənin uğurları üçün böyük təbliğat və təşkilatçılıq işi aparırdı...

Bütün mübarizə sahələrində olduğu kimi, “Kommunist” mədəni inqilab cəbhəsinin də yorulmaz döyüşçüsü olmuşdur. Qəzet “Şərqdə inqilab” kimi qiymətləndirilən yeni əlifba uğrunda mübarizənin ön sıralarında gedir, zəhmətkeşlərin gündən-günə artan və yüksələn mədəni tələbatını, bədii zövqünü və ehtiyacını ödəməyə çalışırdı.

“Kommunist” Azərbaycan qadınının azadlığa çıxması, respublikada gedən quruculuq prosesinə cəlb edilməsi uğrunda səmərəli mübarizə aparmış, bu işə əngəl törədənlərə qarşı barışmaz olmuşdur.

Qəzet o dövrdə beynəlxalq aləmdə baş verən hadisələri diqqət mərkəzində saxlayır, artıq başlanmış II Dünya müharibəsi barədə, hərbi vətənpərvərlik mövzusunda yazılar verir, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə çağırırdı.

Faşist Almaniyası 1941-ci il iyunun 22-də SSRİ-yə hücum etdi. Nəhəng imperiyanın tərkibində olan bütün xalqlar, o cümlədən, azərbaycanlılar Vətənin müdafiəsinə qalxdılar. “Kommunist” müharibənin ilk günündən öz fəaliyyətini yurdun müdafiəsinə uyğunlaşdırdı, ön və arxa cəbhələrdə insanların göstərdiyi hünəri vəsf edən yazılar verdi.

Azərbaycanın mərd övladları müharibənin ən ağır və çətin çağlarında misilsiz hünərlər göstərir, düşmənə qarşı qəhrəmancasına vuruşurdular. Azərbaycan oxucusu ilk Sovet İttifaqı Qəhrəmanımız İsrafil Məmmədovu, iki dəfə Sovet İttifaqı Qəhrəmanımız, general-mayor Həzi Aslanovu və onlarca belə mərd oğullarımızı məhz “Kommunist”in səhifələrindən tanımışdır.

Respublikamızın qəhrəman fəhlə sinfinin, xüsusən Bakı neftçilərinin, kolxozlarının, ziyalıların müharibə dövründəki fədakarlıqları qəzetin diqqətindən kənarda qalmırdı. Qəzet baş məqalələrindən birində yazırdı: “Arxa ön cəbhənin qüdrətli dayağıdır. Arxada bizim fədakarcasına çalışmağımız, bol yanacaq, döyüş sursatı və kənd təsərrüfatı məhsullar əldə etməyimiz özünü dərhal cəbhədə göstərir, döyüşçülərimizi, xalqımızın ən yaxşı oğullarını daha artıq fədakarlıq və qoçaqlıq üçün ruhlandırır”.

*(ardı var)*

## Zakir Həsənov İran ordusunun Baş Qərargah rəisi ilə telefonla danışıb

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə regiondakı vəziyyəti müzakirə edib.**

Bu barədə “XQ”-yə Müdafiə Nazirliyindən məlumat verilib.

Belə ki, avqustun 22-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovla İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqerinin təşəbbüsü ilə telefon danışığı olub.

Tərəflər regiondakı vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı, həmçinin ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri də müzakirə olunub.



## Müdafiə Nazirliyinin məlumatı

**Avqustun 22-si saat 12:00-dan 12:25-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Əzizli, Aşağı Şorca və Dərə yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Yellicə və Gədəbəy rayonunun Daryurd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən “XQ”-yə bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən qeyd olunan istiqamətlərdə cavab tədbirləri görülüb.

*



**Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat fəaliyyətlərini həyata keçirmək məqsədilə Qarabağ iqtisadi rayonunda təminat yolları və döyüş mövqelərimizə yaxın ərazilərdə texniki müşahidə və dinləmə vasitələri quraşdırıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin edilməsi məqsədilə avqustun 21-də görülən tədbirlər nəticəsində qeyri-qanuni erməni silahlı dəstələrinə məxsus 30-dək texniki müşahidə və dinləmə vasitəsi sıradan çıxarılıb.

*

**Ermənistan tərəfinin törətdiyi təxribat zamanı Azərbaycan Ordusunun hərbi qulluqçusu Nəzərov İsmət Ramiz oğlu qarşı tərəfdən açılan atəşin rikoşet etməsi nəticəsində yüngül yaralanıb. Ona dərhal ilkin tibbi yardım göstərilib və hərbi tibb müəssisəsinə təxliyə edilib. Onun həyatı üçün heç bir təhlükə yoxdur.**

Azərbaycan Ordusunun bölmələri tərəfindən qəti cavab tədbirləri görülür.

*Qəzənfər QASIMOV,*
*“Xalq qəzeti”*

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 25 avqust tarixli 386 nömrəli, “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə” 2000-ci il 25 avqust tarixli 388 nömrəli, “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” 2000-ci il 30 avqust tarixli 393 nömrəli, “Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2001-ci il 20 iyul tarixli 544 nömrəli, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 12 aprel tarixli 48 nömrəli, “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 15 fevral tarixli 795 nömrəli və “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609; 2001, № 10, maddə 640; 2003, № 8, maddə 435, № 10, maddə 552; 2004, № 6, maddə 435; 2005, № 2, maddə 64, № 5, maddə 403; 2006, № 7, maddə 590, № 12, maddə 1034; 2007, № 3, maddə 228, № 6, maddə 606, № 11, maddə 1110, № 12, maddə 1246; 2008, № 6, maddə 493; 2009, № 3, maddə 163, № 5, maddə 324; 2010, № 5, maddə 399, № 7, maddələr 610, 628; 2011, № 8, maddə 751; 2012, № 6, maddə 535; 2014, № 6, maddə 626; 2016, № 9, maddə 1464, № 12, maddə 2071; 2017, № 2, maddə 186; 2018, № 1, maddə 43, № 2, maddə 171, № 7 (I kitab), maddə 1448; 2019, № 4, maddə 617, № 7, maddə 1239; 2020, № 5, maddə 540, № 7, maddə 891; 2022, № 8, maddə 863; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 iyul tarixli 2209 nömrəli və 1 avqust tarixli 2270 nömrəli fərmanları) 3.3.3-cü yarımbəndində “İdarəsi” sözü “Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

**2.** “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 611; 2002, № 8, maddə 478; 2008, № 3, maddələr 168, 170, № 7, maddə 618; 2011, № 4, maddə 279; 2013, № 8, maddə 893; 2016, № 4, maddə 676; 2017, № 3, maddə 353; 2018, № 5, maddə 962, № 6, maddə 1203, № 10, maddə 2003; 2019, № 4, maddə 626; 2020, № 8, maddə 1026; 2022, № 8, maddə 863; 2023, № 3, maddə 348) 3.2-1.3-cü yarımbəndində “İdarəsi” sözü “Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

**3.** “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220, № 4, maddə 323, № 6 (I kitab), maddə 585, № 12, maddələr 1398, 1425; 2022, № 1, maddə 22, № 12, maddə 1456; 2023, № 2, maddə 235, № 4, maddə 469; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2216 nömrəli və 1 avqust tarixli 2271 nömrəli fərmanları) 1.34-cü bəndində “İdarəsi” sözü “Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 481; 2005, № 5, maddə 403; 2008, № 3, maddə 175, № 11, maddə 970; 2009, № 7, maddə 533, № 11, maddə 881, № 12, maddə 983; 2011, № 2, maddə 85, № 12, maddə 1138; 2012, № 11, maddə 1110; 2013, № 2, maddə 113; 2014, № 4, maddə 367, № 11, maddə 1416; 2018, № 2, maddə 190; 2020, № 7, maddə 889; 2023, № 3, maddə 348; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyul tarixli 2232 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”nin 10.6-cı bəndinin birinci cümləsində “Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisindən” sözləri “və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktorundan” sözləri ilə əvəz edilsin.

**5.** “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; 2018, № 12 (I kitab), maddə 2614; 2019, № 2, maddə 211; 2020, № 8, maddə 1029, № 11, maddələr 1360, 1362; 2021, № 12, maddə 1400; 2022, № 8, maddə 840; 2023, № 1, maddə 46, № 3, maddə 345; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2276 nömrəli Fərmanı) 2.4.3-cü yarımbəndində “İdarəsi” sözü “Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

**6.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli, 17 iyul tarixli 2221 nömrəli, 18 iyul tarixli 2228 nömrəli, 27 iyul tarixli 2251 nömrəli və 1 avqust tarixli 2272 nömrəli fərmanları) 4.31-ci bəndində “İdarəsi” sözü “Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli, 17 iyul tarixli 2221 nömrəli, 18 iyul tarixli 2228 nömrəli və 1 avqust tarixli 2272 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 36.3-cü bəndində “İdarəsinin rəisi” sözləri “Agentliyinin direktoru” sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 15 fevral tarixli 795 nömrəli və “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli, 17 iyul tarixli 2221 nömrəli, 18 iyul tarixli 2228 nömrəli, 27 iyul tarixli 2251 nömrəli, 1 avqust tarixli 2272 nömrəli və 16 avqust tarixli 2299 nömrəli fərmanları) 4.29-1-ci bəndindən “, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə Bakı Nəqliyyat Agentliyi” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli, 17 iyul tarixli 2221 nömrəli, 18 iyul tarixli 2228 nömrəli, 1 avqust tarixli 2272 nömrəli və 16 avqust tarixli 2299 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 22-ci, 26-cı, 26-3-cü və 26-4-cü hissələr aşağıdakı redaksiyada verilsin:

“22. Məcəllənin 267-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adından – rəqəmsal inkişaf və nəqliyyat naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Nazirliyin tabeliyində Dövlət Dəniz və Liman Agentliyinin İdarə Heyətinin sədri, onun müavinləri, departament direktoru, şöbə müdiri, baş məsləhətçi.”;

“26. Məcəllənin 362-3, 363-2, 369, 370, 370-1 və 370-2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adından – rəqəmsal inkişaf və nəqliyyat naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri.”;

“26-3. Məcəllənin 325.1, 326 və 552-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adından – rəqəmsal inkişaf və nəqliyyat naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri, onun müavinləri, departament direktoru, onun müavini, şöbə müdiri, baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis, regional idarələrin müdirləri, baş inspektor, böyük inspektor, aparıcı inspektor, inspektor, Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.

26-4. Məcəllənin 363.2 və 363.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

26-4.1. radioqəbuledici qurğuların və radioötürücülərin xüsusi icazə olmadan əldə edilməsinə münasibətdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adından – bu Siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

26-4.2. radioqəbuledici qurğuların və radioötürücülərin xüsusi icazə olmadan idxalına münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından – bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.”;

2.2. 26-1.1-ci, 31-6.3-cü, 31-7.3-cü və 31-9.3-cü bəndlərdə “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin;

2.3. 26-2.1-ci bənddə “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə, “26-cı hissəsində” sözləri “31-5.2-ci bəndində” sözləri ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 26-5-ci və 26-6-cı hissələr əlavə edilsin:

“26-5. Məcəllənin 368-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

26-5.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adından – bu Siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

26-5.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.

26-6. Məcəllənin 375, 388-1.1.2, 388-1.2 və 459.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adından – bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.”;

2.5. 28-1.1-ci bənddə “26-cı hissəsində” sözləri “31-5.2-ci bəndində” sözləri ilə əvəz edilsin;

2.6. 31-5.2-ci bənddə birinci halda “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə, ikinci halda “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri “rəqəmsal inkişaf və nəqliyyat” sözləri ilə əvəz edilsin;

2.7. 66-1-ci hissə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 785-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 540; 2013, № 12, maddə 1552; 2014, № 1, maddə 14; 2015, № 6, maddə 699; 2016, № 9, maddə 1487, № 10, maddə 1626; 2017, № 12 (I kitab), maddə 2333; 2018, № 7 (I kitab), maddə 1487; 2019, № 6, maddə 1031; 2020, № 2, maddə 97, № 6, maddə 702; 2022, № 7, maddə 742, № 8, maddə 871, № 11, maddə 1268; 2023, № 2, maddə 245, № 3, maddə 368, № 5, maddə 636; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 iyun tarixli 2198 nömrəli və 19 iyul tarixli 2232 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 3.1.22-ci yarımbəndində "və xarici valyutanın, digər" sözləri "valyuta və" sözləri ilə, "məlumatı" sözü "məlumat və sənədləri" sözləri ilə əvəz olunsun, həmin yarımbəndə "o cümlədən" sözlərindən sonra "milli valyutanın və" sözləri, "olunmuş" sözündən sonra "məlumat və" sözləri əlavə edilsin və həmin yarımbənddən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 avqust 2023-cü il**

## Xankəndi sakini Karen Matevosyana cinayət işi açılıb

**Azərbaycan Respublikasının Xankəndi şəhərində yaşayan və özünü Karen Matevosyan kimi təqdim edən hərbi geyimdə olan şəxsin avqustun 21-də teleqram və digər internet informasiya resurslarında rus dilində yayımlanmış videomüraciəti üzrə Baş Prokurorluğun İstintaq idarəsində araşdırma aparılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən "XQ"-yə bildirilib ki, araşdırma zamanı qeyd olunan şəxsin videomüraciətində ölkəmizin ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsində yaşayan erməniəsilli şəxslərə səslənərək həmin ərazini qanunsuz olaraq dövlət təsisatları olan müstəqil "Artsax Respublikası" kimi adlandırması, ərazimizdə qanunvericiliyimiz ilə nəzərdə tutulmayan və Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin tərkibində mövcud olmayan "Yerli özünü müdafiə qüvvələri" adlı qanunsuz yaratdığı silahlı birləşmənin komandiri olduğunu açıq şəkildə bəyan etməsi, azərbaycanlıları düşmən adlandırmaqla Azərbaycan xalqına qarşı nifrət məzmunlu çıxışlar etməsi, habelə aşkar surətdə internet informasiya resurslarından istifadə etməklə milli nifrət və düşmənçiliyin salınmasına yönələn hərəkətlər etməsi müəyyən edilib.

Qeyd olunanlara əsasən avqustun 22-də Baş Prokurorluq tərəfindən fakta görə Cinayət Məcəlləsinin 279.1 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qruplar yaratma) və 283.1-ci (milli nifrət və düşmənçiliyin salınması) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması İstintaq idarəsinə həvalə edilib.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri həyata keçirilir.

***Q.QASIMOV,***
***"Xalq qəzeti"***

## Füzulinin daha 89 sakini doğma yurda qayıtdı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.**

Dünən növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 23 ailə - 89 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Köçürülən ailələr Füzulidə yenidən tikilən evlərdə məskunlaşır. Bununla da şəhərdə 70 ailə, yəni 247 nəfərin daimi məskunlaşması təmin edilib

***"Xalq qəzeti"***

## Azərbaycan–Özbəkistan: enerji əməkdaşlığı üzrə Yol Xəritəsi imzalanıb

**Azərbaycan ilə Özbəkistan arasında enerji sahəsində əməkdaşlığın dərinləşdirilməsi məqsədilə energetika naziri Pərviz Şahbazov və ölkəmizdə səfərdə olan Özbəkistanın energetika naziri Jurabek Mirzamahmudovun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.**

Görüş çərçivəsində "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Özbəkistan Respublikasının Energetika Nazirliyi arasında 2023-2025-ci illər üçün enerji sektorunda əməkdaşlığın genişləndirilməsinə dair Yol Xəritəsi" imzalanıb. On dörd istiqaməti əhatə edən Yol Xəritəsi hər iki ölkədə karbohidrogen resurslarının geoloji kəşfiyyatı və hasilatı, birgə müəssisələrin yaradılmasına dair əməkdaşlığı nəzərdə tutur. Sənədə əsasən, Azərbaycan və Özbəkistan bərpaolunan enerji, enerji sektorunda islahatlar, enerji resurslarından səmərəli istifadə, enerji keçidi, dekarbonizasiya, hidrogen istehsalı ilə bağlı informasiya və təcrübə mübadiləsi üzrə də əməkdaşlıq edəcəklər. Həmçinin bu il iyulun 26-da "Özbəkistan Milli Elektrik Şəbəkəsi" SC ilə "Azərenerji" ASC arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq hər iki ölkənin sistem operatorları arasında əməkdaşlığın davam etdirilməsi də əsas fəaliyyət istiqamətlərindən biri kimi Yol Xəritəsində əks olunub.

***"Xalq qəzeti"***

## Xocavənd rayonunda partlayıcı qurğular aşkarlanıb

**ANAMA tərəfindən icra edilən minatəmizləmə əməliyyatları zamanı Xocavənd rayonunun Bulutan kəndi ərazisində tərk edilmiş yaşayış evlərində əldəqayırma (improvizə edilmiş) partlayıcı qurğular aşkar olunub.**

Bu barədə "XQ"-yə ANAMA-dan məlumat verilib.

Qeyd edək ki, əvvəllər bu ərazilərdə etnik erməni əhalisi məskunlaşıb. Aşkar olunan tələ-minalar ərazini tərk edərkən bu yerlərdə qəsdən yerləşdirilib.

ANAMA bir daha vətəndaşlara müraciət edərək bildirir ki, bələd olmadıqları ərazilərə daxil olmasınlar, şübhəli əşyalara toxunmasınlar.

***"Xalq qəzeti"***

# Cənub bölgəsinin Vətənə sədaqət imtahanı

## *Lənkəran hadisələrindən 30 il keçir*



**Çağdaş Azərbaycanda ictimai-siyasi inkişafın, dövlət quruculuğunun, iqtisadi dirçəlişin 34 ilini əhatə edən zaman kəsiyi böyük siyasət xadimi Heydər Əliyevin adı və əməli fəaliyyəti ilə bağlıdır. Bu mürəkkəb proseslər onun fəlsəfi məfkurəsində öz əksini tapmışdır. Dahi şəxsiyyət Heydər Əliyevin sayəsində xalqımız milli-mənəvi dəyərlərinə, soykökünə qayıtmış, 1993–2003-cü illər tariximizə dirçəliş və tərəqqi dövrü kimi yazılmışdır.**

Xalqın təkidi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıtmış dünya şöhrətli siyasətçi öncə Gəncəyə gedərək Surət Hüseynovun başıpozuq dəstələrini ram etmiş, daha sonra isə Cənub bölgəsində Əlikram Hümbətovun yaratdığı qarışıqlıq və itaətsizliyi aradan qaldırmışdır.

Avqustun 24-də Ümummilli lider Heydər Əliyevin çağırışı ilə ayağa qalxmış Lənkəran sakinləri tarixi düşmənlərimizin əli ilə respublikamızın ərazi bütövlüyünün parçalanmasına çalışan Əlikram Hümbətovun başçılıq etdiyi quldur dəstəni darmadağın etmişdilər. O zaman separatçılıq hərəkətlərinə qəti etirazını bildirən əliyalın xalq qondarma "Talış Muğan Respublikasının" elan olunduğu Lənkəran Şəhər İcra Hakimiyyətinin binasına hücum edərkən sakinlərdən 5 nəfər yaralanmış, Soltanağa Bayramov, Paşa Təhməzov və Etibar Əliyev isə xain qüvvələrin gülləsinə tuş gələrək şəhid olmuşdular. Prezident Heydər Əliyev onların şücaətini yüksək qiymətləndirərək, hər üçünü Azərbaycanın Milli Qəhrəmanı fəxri adı ilə təltif etmişdir.

Çağdaş tariximizin "qara yara"sı adlandırılan həmin hadisələrdən 30 il ötür. Azərbaycanda siyasi sabitlik yaranmasını istəməyən qüvvələr öz əlaltılarının, o cümlədən Əlikram Hümbətovun vasitəsilə respublikada qarşıdurma yaratmaqda maraqlı idilər. Həmin qüvvələr AXC iqtidarının fərsiz idarəetməsindən istifadə edərək silahlı dəstələr yaradır, hərbi hissələri "özəlləşdirirdilər". Məsələn, Ə.Hümbətovun yaxın əlaltıları Cəmil və Mikayıl Hacıyev qardaşları "N" saylı hərbi hissəyə briqada komandiri və müavini təyin olunmuşdular. Onların hərbi hissənin silahlarını xarici ölkə vətəndaşlarına satdıqları, "Sadval" cəmiyyətinin üzvləri ilə əlaqələri bəlli idi. Ə.Hümbətov və onun cinayətkar dəstəsi tərəfindən paylanan və satılan xeyli silah–sursat var idi. Müvafiq orqanlar tərəfindən iş aparılsa da, heç bir nəticə əldə olunmamışdı. Ə.Hümbətovun bütün fəaliyyəti xarici ölkələrin kəşfiyyat orqanları tərəfindən istiqamətləndirilirdi.

Bu cinayətkar separatçı ünsür ətrafına topladığı dövlətə zidd qüvvələrin dəstəyi ilə qondarma "Talış Muğan Respublikası" elan edəndən sonra Rusiya, Belarus və İran İslam Respublikasının başçılarına müraciət edərək, "TMR" i tanımağı xahiş edirdi. Hətta Ə.Hümbətov "TMR"–in qonşu ölkənin tərkibinə daxil olması istəyini də bildirir, "müstəqil dövlətin başçısı" kimi guya bölgənin qazla təminat problemini həll etmək adı ilə İrana səfər etməyi planlaşdırırdı. Bütün bunlar əvvəlcədən hazırlanmış ssenari idi. Onun hansı yollarla maliyyələşdirilməsi də, Surət Hüseynovla məxfi görüşləri də məlum idi. Ölkənin daxilində onu dəstəkləyənlər itirdikləri vəzifələri qaytarmaq istəyənlər və mafioz qüvvələr idi.

Aradan keçən 30 ildən sonra 1993-cü ilin iyun–avqust hadisələrinin təhlili müəyyən nəticələr çıxarmağa imkan verir. Həmin günlərin canlı şahidi, Vətənə sədaqət imtahanı vermiş vətənpərvər ziyalı İbrahim Quliyevin xatirələri öz obyektivliyi ilə maraq kəsb edir.

İbrahim Quliyev SSRİ DİN İdarəetmə Akademiyasını fərqlənmə diplomu ilə bitirmiş, daha sonra hüquq elmləri doktoru alimlik dərəcəsi almışdır. Ehtiyatda olan polis polkovnikidir, I Qarabağ müharibəsi iştirakçısıdır. Hazırda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı sədrinin müşaviri, Yeni Azərbaycan Partiyası və Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvüdür.

**İbrahim Quliyevin dedikləri:** "Cənub bölgəsində Əlikram Hümbətov başda olmaqla separatçı qüvvələr baş qaldıranda mən Astara rayon polis şöbəsinin rəisi idim. Respublika ərazisində fövqəladə vəziyyət elan olunması ilə bağlı rayonun hərbi komendantı təyin olundum. Səlahiyyətim daxilində qanunların aliliyini təmin edirdim. Surət Hüseynovun, Rəhim Qazıyevin və pərdə arxasında gizlənən digərlərinin himayədarlığı ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyi sistemində məsul vəzifələrə irəli çəkilən Əlikram Hümbətov əlində xeyli hərbi texnika, silah və canlı qüvvə cəmləşdirmişdi. O, düşmən qüvvələrin fitvası ilə dövlətə xəyanət yolu tutdu, özü üçün "respublika" yaratmaq xəyalına düşdü. Vətənimizin erməni işğalçıları tərəfindən amansızcasına təcavüzə məruz qaldığı ağır günlərdə öz silahlı dəstəsini cəbhədən geri çəkərək Lənkərana gətirən bu xəyanətkar onları bölgənin rayonlarına göndərir, icra hakimiyyəti başçılarını qanunsuz olaraq vəzifədən kənarlaşdırır, yerinə öz adamlarını "təyin" edirdi. Əleyhinə çıxanları, buyuruğuna əməl etməyənləri həbsə alırdı.

Biz separatçıların qanunazidd hərəkətlərinə göz yuma, bəziləri kimi gözləmə mövqeyində dayana bilməzdik. Əlikramın Azərbaycanda 2-ci Gəncə hadisələri törətmək, qan tökmək niyyəti aydın idi. Odur ki, qanunun bizə verdiyi səlahiyyətlərdən, imkanlardan istifadə edib, bütün qüvvə və bacarığımızı qarşıdurmaya sədd çəkməyə yönəltdik. Dəfələrlə Ə.Hümbətovla görüşüb onu tutduğu yoldan çəkindirməyə cəhd etdik. O isə nəinki xəyanətkar əməllərindən əl çəkmir, əksinə, Azərbaycan hökuməti ilə toqquşma yaratmaq üçün bəhanələr axtarırdı.

İyulun 10-da Astara fövqəladə vəziyyət rayonu hərbi komendantı qərargahının iclasını keçirdik. Həmin gün iclas iştirakçıları qərar qəbul etdilər. Qərara əsasən, Əlikram Hümbətovun Azərbaycanın Cənub bölgəsində hakimiyyəti ələ almaq cəhdləri qeyri-qanuni sayıldı və bu bədnam "hökumət"dən gələn bütün göstərişlərin Astara rayonu ərazisində icrasına yasaq qoyuldu. Bu qərarla əlaqədar Azərbaycan rəhbərliyinə müraciət də qəbul edildi. Mən hərbi komendant kimi bəyanat hazırlayaraq rayon ərazisində yaydım. Həmin bəyanatda hər kəsi yalnız Azərbaycan Respublikasının Konstitusiyasının tələblərinə əməl etməyə, respublikamızın ərazi bütövlüyü uğrunda mübarizə aparmağa, Ali Sovetin Sədri, respublika Prezidenti səlahiyyətlərini icra edən Heydər Əliyevin tövsiyələrini dönmədən həyata keçirməyə çağırdım".

– İbrahim Quliyev daha sonra qeyd edir ki, müntəzəm olaraq Prezident Aparatına, DİN rəhbərliyinə vəziyyət barədə gündəlik məlumat verir, onlardan göstərişlər alırdı: "Biz bilirdik ki, Heydər Əliyev bölgədəki vəziyyətə tam nəzarət edir və hər şeydən xəbərdardır. Ulu öndərin rəhbərliyi ilə avqustun 13-də keçirilən geniş müşavirə, Cənub bölgəsindən seçilmiş deputatlar, həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüş məhz bu məsələyə yönəldilmişdi. Həmin müşavirənin davamı olaraq Milli Məclisin 16–17 avqust tarixlərindəki növbədənkənar iclaslarında da bölgədəki vəziyyət ətraflı müzakirə olunmuş, parlament üç gün ərzində "Cənub bölgəsində ictimai asayişin bərpası" haqqında qərar qəbul etmişdi. Heydər Əliyev xalqa, xalq isə inandığı, seçdiyi liderinə arxalanmışdı. Onun separatçı qüvvələrə qarşı barışmaz mövqeyi bizi ruhlandırırdı.

Artıq İbrahim Quliyev açıq-aşkar hədələnməyə başlandı. Hətta Surət Hüseynov "dostu və qardaşı" Əlikrama mane olduğuna görə onu ciddi cəzalandırmağı tapşırmışdı. Lənkərana növbəti dəfə gedəndə onu tutub döydülər və gözlərini bağlayaraq icra hakimiyyətinin yaxınlığındakı hərbi hissəyə – Əlikramın bazasına apardılar. Olmazın işgəncələr verdilər.

Sonra gözünü yenidən bağlayıb Lerik yolu üstündəki meşəyə apardılar. 5 gün orada saxladılar. Daha sonra əhalinin ayağa qalxmasından ehtiyat edərək buraxdılar.

Avqustun 20-dən sonrakı günlər Lənkəranın, ümumiyyətlə, Azərbaycanın Cənub bölgəsinin tarixinə qızıl hərflərlə yazılasıdı: Ayın 23-də Heydər Əliyev televiziya ilə 7 rayonun əhalisinə və oradakı silahlı qüvvələrə müraciət edərək Hümbətovu devirməyə çağırdı. Bu çıxışdan 1 gün sonra Əlikram Hümbətova qarşı Lənkəranda 10 min nəfərdən çox insanın iştirak etdiyi mitinq keçirildi. Hümbətovun silahlıları meydana yığışan kütləyə atəş açdı, etirazçılar isə heç nəyə baxmadam irəli atıldılar və Hümbətovu qaçmağa məcbur etdilər.

Həmin günlərdə bütün Cənub bölgəsi qondarma "TMR"-ə qarşı ayağa qalxmışdı. Astarada da ictimaiyyət nümayəndələrinin izdihamlı mitinqi keçirildi. Hamılıqla və qətiyyətlə bildirildi ki, astaralılar qondarma respublika ideyasını, Ə.Hümbətovun cinayətkar əməllərini müstəqil dövlətimizə xəyanət kimi qiymətləndirirlər və onun quldur dəstələrinə qarşı qətiyyətli mübarizə aparacaqlar.

...Lənkəran hadisələrinin ildönümü münasibətilə hər il şəhərin Paşa Təhməzov küçəsindəki Qəhrəmanlar xiyabanında anım tədbiri keçirilir. Dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi, türk dünyasının sevimli və mərd oğlu Heydər Əliyevin misilsiz xilaskarlıq missiyasından iftixarla bəhs edilir. Həmin hadisələr zamanı şəhid olmuş Azərbaycanın milli qəhrəmanlarının xatirəsi anılır, büstləri önünə gül-çiçək dəstələri qoyulur. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyalarına sədaqətlə xidmət edən Prezident, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcəkdir.

***Cəmil QULİYEV,***
***tarix üzrə fəlsəfə doktoru,***
***AJB–nin üzvü***

## Babəkin Qahab kəndində görüş





**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Babək rayonunun Qahab kəndində olub, sakinlərlə görüşüb.**

Söhbət zamanı səlahiyyətli nümayəndə Prezident İlham Əliyevin qədim diyarda quruculuq işlərinin yüksək səviyyədə davam etdirilməsinə göstərdiyi diqqət və qayğının təzahürü olan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" barədə məlumat verib, növbəti mərhələdə görüləcək işlər və həyata keçiriləcək sosial-iqtisadi layihələrdən söz açıb. Fuad Nəcəfli rayon sakinləri ilə ötən görüşlərdə qaldırılan məsələlərə və onların həlli ilə bağlı görülən işlərə də toxunub.

Görüşdə 56 kənd sakininin müraciəti dinlənilib, 4 sakinin ərizəsi isə baxılmaq üçün götürülüb, qaldırılan məsələlər qeydiyyata alınıb.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***

**Naxçıvan**

# Gedən getsin, qalan qalsın

## “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsindən keçən ermənilər onlara göstərilən xidmətdən razıdırlar

**Azərbaycanın beynəlxalq normalara uyğun olaraq aprelin 23-də Ermənistanla şərti sərhəddə yaratdığı sərhəd nəzarət-buraxılış məntəqəsi öz işini uğurla davam etdirməkdədir. Gün ərzində məntəqədən keçməklə Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) və ərazimizdə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının vasitəçiliyi ilə Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli onlarca Azərbaycan vətəndaşı Ermənistana səfər edir. Onların geri qayıdışı da eyni qaydada təmin edilir. Yəni, suveren dövlətlər arasında sərhədi keçməklə bağlı mövcud olan beynəlxalq praktika hazırda “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsində tətbiq olunur.**

Qarabağdakı erməni separatçılarının ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Azərbaycanda mərkəzi hakimiyyətin zəif olmasından istifadə edərək yaratdıqları qondarma “dqr”in tör-töküntüsünün başçılarının nə deməsindən, məntəqəni necə təqdim etməsindən asılı olmayaraq, sərhədi keçən erməni əsilli vətəndaşlar məmnundur. Elə avqustun 22-də sərhəd nəzarət-buraxılış məntəqəsindən keçmiş Elen Arstamyan kimi.

Qeyd edək ki, dünən səhər saatlarında BQXK əməkdaşlarının müşayiəti ilə erməni əsilli şəxslərin növbəti dəfə sərbəst keçidi təmin edilib. Məntəqədən Gorusa doğru BQXK-yə məxsus ümumilikdə 9 nəqliyyat vasitəsi keçib. Həmin nəqliyyat vasitələrinin içərisində BQXK-nın əməkdaşları, sürücülər, müşayiətçilər, tibb işçisi və xəstələrdən ibarət 57 nəfər olub. Növbəti dəfə isə 60-a yaxın şəxs Ermənistan istiqamətinə hərəkət edib.

Bu, bir daha mülki ermənilərin məntəqədən keçidində heç bir maneənin, hər hansı çətinliyin olmamasını göstərir. Həmçinin Ermənistanın Azərbaycan tərəfindən Laçın yolunun blokadada saxlanmasına dair iddialarının yalan və böhtan olduğunu bir daha sübuta yetirir.

Dünən yalnız Xankəndidən Ermənistana gedən bir erməni qadına çantasının üzərindəki qadağan olunmuş atributla (qondarma rejimin bayrağı adlanan əski parçası çanta üzərinə həkk olunmuşdu – S.H.) bağlı sərhədçilərimiz tərəfindən xəbərdarlıq edilib. Sərhədçilərimiz nəzakətlə bildiriblər ki, çantanı müsadirə etmirlər, ancaq bir daha belə hallar təkrarlanmamalıdır.

***

Sərhəddən asan və şəffaf qaydada keçid Ermənistanın və Qarabağdakı separatçıların yalan və böhtanlarının ifşası baxımından da mühüm əhəmiyyət daşıyır. Məsələn, Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə yenidən inteqrasiya edəcəkləri təqdirdə, guya, onları Vaqif Xaçatryanın aqibətinin gözləyəcəyi barədə iftira var. Bu baxımdan, Ermənistanda revanşist kəsimi təmsil edən politoloq Armen Badalyanın dediklərinə diqqət yetirək: “Qarabağın 120 min (?) sakini, o cümlədən siyasətçilər, generallar və ictimai xadimlər Vaqif Xaçatryanın taleyini yaşamaq və azərbaycanlıların əsirliyinə düşmək istəyirlərsə, o zaman Xankəndi ilə Bakı arasında birbaşa danışıqlara razılıq versinlər. Əgər belə bir perspektiv onları qane etmirsə, o zaman, Arayik Arutyunyanın “istefası”na nail olmalı, “parlament” tərəfindən özlərinə yeni başçı seçməlidirlər”.




Bu məqam qondarma rejimin “qlavarı” Arayik Arutyunyanın avqustun 8-də beynəlxalq aktorlara etdiyi müraciətdə də öz əksini tapmışdı. O demişdi ki, 44 günlük müharibədən iki ildən çox vaxt keçsə də, Qarabağı hərbi yolla ermənisizləşdirməyə (?) nail ola bilməyən Azərbaycan məqsədlərinə güc yolu ilə deyil, başqa üsullarla nail olmaq üçün ardıcıl cəhdlərini davam etdirir. O, Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasının erməni əhalinin sərbəst hərəkətinin qəsdən məhdudlaşdırılması məqsədi daşıdığını, sonra isə Qarabağ əhalisinin normal yaşayışını təmin etmək üçün həyata keçirilən humanitar yüklərin daşınmasının tamamilə dayandırıldığını (?) bildirmişdi. Onu da demişdi ki, bu “qanunsuz” yaradılmış keçid məntəqəsinin bilavasitə qurbanı “Artsax respublikası”nın “vətəndaşı” Vaqif Xaçatryan olub.

Ancaq zaman bu kimi separatçı başçıların dedikləri sözlərin heç bir əsasının olmasığını bir daha ortaya qoydu. Əvvəla, Azərbaycan qarşısına Qarabağı ermənisizləşdirmək kimi bir məqsəd qoymayıb. Ölkəmizin belə bir niyyəti heç zaman olmayıb, bu gün də yoxdur, gələcəkdə də olmayacaq. Əksinə, rəsmi Bakı Qarabağ ermənilərinin Azərbaycanın siyasi, hüquqi və sosial-iqtisadi çərçivəsinə yenidən inteqrasiyasına nail olmağa çalışır. Xarici İşlər Nazirliyinin BMT Təhlükəsizlik Şurasında avqustun 16-da aparılmış müzakirələrə dair bəyanatında qeyd edildiyi kimi, ölkəmiz Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuş, habelə Azərbaycanın tərəfdar çıxdığı insan hüquqları üzrə bütün müvafiq beynəlxalq mexanizmlərə uyğun olaraq, hüquq və azadlıqlarını təmin etməklə bərabərhüquqlu vətəndaş kimi reinteqrasiya siyasətini aparır. Bu baxımdan, Arutyunyanın iddia etdiyi Qarabağın ermənisizləşdirilməsi iddiası tamamilə yalandır.

Onun sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasının Qarabağ ermənilərinin sərbəst hərəkətinə maneə törətdiyi fikri də böhtandır. Məsələ ondadır ki, Qarabağ erməniləri məntəqədən günün istənilən saatında sərbəst hərəkət edə bilirlər. Bu məqam artıq ermənilərin özləri tərəfindən də etiraf olunur. Sadəcə, Azərbaycan qanunvericiliyi çərçivəsində sərhəd nəzarət-buraxılış məntəqəsindən keçmək və aparılan-gətirilən yükləri bəyan etmək lazımdır.

Vaqif Xaçatryanın həbsinə gəldikdə isə 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində törədilən qətliamda iştirak etməkdə ittiham olunan bu adam sərhədi keçərkən saxlanılan yeganə şəxsdir. İnsanlıq əleyhinə cinayət törətmiş V.Xaçatryanın həbsi ilə bağlı ictimaiyyəti yanlış yönləndirən Arutyunyan kimilərinə bir daha xatırlatmaq istərdik ki, beynəlxalq humanitar hüquqda müharibə cinayətkarlarına qarşı müvafiq tədbirlər görülməsinə mane olan heç bir məhdudiyyət yoxdur. Bu şəxsin həbsi Azərbaycan qanunvericiliyi və beynəlxalq hüquq çərçivəsində həyata keçirilib. Ermənistan tərəfi 30 ilə yaxın azərbaycanlılara qarşı soyqırımı daxil insanlıq əleyhinə cinayətlər və kütləvi qırğınlar törədilməsinə görə məsuliyyət daşıyanları müdafiə və əməllərini ört-basdır etmək əvəzinə, onların cinayət məsuliyyətinə cəlb edilməsi işinə dəstək verməlidir. Beləliklə, A.Arutyunyanın beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün ortalığa atdığı daha bir iddianı ifşa olunmuş saya bilərik.

Bütün bunlardan əlavə, Azərbaycan Qarabağ ermənilərinə başqa seçim şansları da qoyub. Ölkəmiz qəti sözünü deyib və seçimi Qarabağ ermənilərinin özlərinin ixtiyarına buraxıb. Qarabağ erməniləri Azərbaycan vətəndaşlığını qəbul etməli, ölkəmizin normal vətəndaşları olmalı, qanunlarına sayğı göstərməli, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmalıdırlar. Bununla razılaşmayanlar bölgəni tərk edib köç etməkdə sərbəstdirlər. Onlar dünyanın istənilən yerində “dqr” yaratmaq hüquqlarını da özlərində saxlayırlar. Baxaq görək, hansı ölkə özünün suveren ərazisində onlara bu hüququ tanıyacaq?

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

### Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**

– Qarabağ ermənilərinin iki seçimi var. Bu seçimlərdən biri Azərbaycan cəmiyyətinə reinteqrasiyadır, digəri başqa yerə çıxıb getməkdir. İndi onlar bu məsələni süründürməyə, hansısa beynəlxalq tərəfdaş tapmağa çalışırlar. Məsələn, Nyu-Yorka gedərək BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı diplomatik addım atmaq istədilər. Bu da uğursuz oldu.

Qarabağ ermənilərinin reinteqrasiyaya hazır olduqları barədə optimist fikir bildirməyə tələsmirəm. Hələ ki, çətinliklər var. Amma son xəbərlər bundan ibarətdir ki, ermənilər Ağdam-Xankəndi yolunun açılmasını müzakirə etməyə hazırdırlar. Hər halda, bunu yaxın gələcək göstərəcək.

“Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsindən Qarabağ ermənilərinin keçidinə gəldikdə isə deməliyəm ki, bu, normal prosesdir. Ümumiyyətlə, onlar reinteqrasiya paketini qəbul etsələr, sərbəst hərəkət edəcəklər. Onlar Ermənistana da, Rusiyaya da, dünyanın başqa ölkələrinə də gedib geri qayıda biləcəklər. Ancaq bir şərtlə ki, Azərbaycan pasportunu daşısınlar.

Ermənilərlə bağlı yüz faiz proqnoz vermək çətindir. Son məqamda kimsə müdaxilə edir və sair. Bunu sülh müqaviləsi üzrə danışıqlardan da görmək mümkündür. Ancaq hələ də bir yenilik yoxdur. Ümumiyyətlə, Qarabağ erməniləri daxilində müzakirələr gedir. Artıq onların “blokada”, “soyqırımı” taktikası və strategiyası uğursuzluğa düçar olub. Düzdür, bəzi Qərb mediası ənənəvi olaraq erməniləri dəstəkləyir. Amma buna baxmayaraq, reallıq dəyişmir və ermənilər də bununla barışmalıdırlar. Bu baxımdan Qarabağ ermənilərinin Azərbaycanın təkliflərini qəbul etməklə bağlı ciddi müzakirə apardıqları ehtimalı böyükdür.

# Rubenin Lenin sevdası

## yaxud Ermənistanda Qarabağ naminə inqilab avantürası



**Qarabağdakı separatçı rejimin sabiq “dövlət naziri”, hazırda oyunbazlığını ictimai hərəkat yaradaraq həyata keçirən Ruben Vardanyan rejimin rəhbəri Arayik Arutyunyan barədə təhqir xarakterli aşağılayıcı fikirlərini Ermənistan rəhbərliyinə də ünvanlayıb. Onun Telegram kanalında yazdıqları belə deməyə əsas verir.**

Rubenin nələri yazmasından söz açacağıq. Hələlik isə bildirək ki, Vardanyanın isterikası Qarabağdakı separatçılıq çənbərinin tam daraldığının doğurduğu son dərəcə aciz mənzərədir. Azərbaycan Ordusunun bölmələri dünən bölgədəki qeyri-qanuni erməni hərbi birləşmələrinin 30-dək texniki avadanlığını sıradan çıxarıblar. Ölkəmizin Müdafiə Nazirliyinin yaydığı məlumatda oxşar tədbirlərin davamlı şəkil alacağı açıqlanıb. Bu, öz yerində...

R.Vardanyan yazdıqları ilə Ermənistandakı sentyabr seçkilərini hədəf seçir. O seçkiləri ki, orada İrəvan merinin kimliyi bəlli olacaq. Bu, adi hadisə deyil və məsələnin də təfərrüatlarında diqqət yetirəcəyik. Əlqərəz, Ruben bildirib ki, bütövlükdə, erməni dünyası ekzistensial böhran yaşayır. “Biz millət olaraq məhv olmaq təhlükəsi qarşısındayıq. Qarabağa və Ermənistan ərazilərinin bir hissəsinə təhdidlər artıq aydın reallıqdır. Düşmənlərimizin növbəti addımları Ermənistana təcavüz, bütün erməni xalqının, onun mədəniyyətinin məhv edilməsidir”, – deyən Rubenin vay-şivən ritorikasına üstünlük verdiyi ortadadır.

Pafoslu cümlələrinin hədəfi başqa olsa da, o da aydın görünür ki, Vardanyan erməni xalqını Azərbaycanla yeni müharibəyə çağırır. O deyir ki, Qarabağı, “bizim forpostumuzu müdafiə etmək, bütün xalqın ümumi işi və ölüm-dirim məsələsidir”. Bu yerdə Ruben ittihama keçir. “Bəs Ermənistan dövləti, ən güclü oyunçu kimi bunun üçün nə edir? Qarabağı itirir!”, – deyən Vardanyan bolşevizmin banisi Leninin inqilabi şəraitlə bağlı məşhur “aşağılar əvvəlki qaydada idarə olunmaq istəmir, yuxarılar əvvəlki qaydada idarə etmək” deyimini Ermənistana uyğunlaşdırmaq yolunu tutur: “Ermənistanda siyasi vəziyyət belə görünür: aşağılar bacarmır, yuxarılar istəmir”.

Rubenin baş nazir Nikol Paşinyan iqtidarı üzərinə isterik hücumunun daha bir göstəricisi onun Qarabağın Azərbaycana təslim edilməsini Ermənistanın suverenliyinin tam itirilməsi ssenarisini tərkib hissəsi kimi görməsidir. Vardanyanı yalnız bir məqamda nisbətən haqlı saymaq mümkündür. O anlamda ki, müasir Ermənistan Respublikası ümumən Qarabağ avantürası üzərində qurulmuş dövlətdir. Yəni, onun ideoloji mahiyyətini məhz bu avantüra və onun doğurduğu millətçilik təşkil edir. Deməli, Qarabağ əldən çıxırsa, dövlət üçün ideya mənbəyi qalmır. İdeya mənbəyi olmayan dövlət isə məhvə məhkumdur. Və deməli, ya Ermənistan özünün xəstəliyindən qurtulmalı, ya da yox olmalıdır ki, indiki halda Vardanyan üçün birinci variant tam istisnadır. Nəticəyə gəlirik ki, o, Ermənistan adlı dövlətin ümumiyyətlə yer üzündən silinməsini istəyir. Əks halda, durumu gərginləşdirmək yolu tutmazdı.

Vardanyanın özünün “Telegram manifesti”ndə “keçmişlər” ifadəsini işlədir. Çox güman, Ermənistanın əvvəlki rəhbərliyini nəzərdə tutur. Onun sözlərindən belə çıxır ki, ölkənin keçmiş iqtidarı da indiki durumun yaranmasında günahkardır. Ancaq son iki ilədək hansı cəhənnəmdə süləndiyi bəlli olmayan (əslində, R.Vardanyanın maliyyə möhtəkirliyi ilə məşğul olması məlum məsələdir – red.) sabiq “dövlət naziri”, eyni zamanda erməni xalqını da ittiham edir. Yazır ki, “keçmişlər” mübarizədən üz döndərdilər. Çünki gördülər ki, xalq yuxudadır və yuxuda olmağı xalqa bağışlaya bilmədilər. Belə çıxır, Paşinyan xalqın yuxuda olmasına görə hakimiyyətə gəlib. Sarkisyan və bütövlükdə Qarabağ klanı bundan incidiyi üçün prosesə qarşı çıxmaq istəməyib. Həqiqətən də sarsaq məntiqdir.

Göründüyü kimi, Rubenin isterikası pik həddə çatıb. Bu emossional psixoz halı ilə o, ard-arda suallar ünvanlayır: Qarabağ bu vəziyyətdə nə etməlidir? Ermənistanı Qarabağın təhlükəsizliyinin təminatçısı kimi qaytarmaq üçün hamımızın – dünya ermənilərinin hansı planı olmalıdır? Vardanyan suallarına cavab da müəyyənləşdirib. O, fərqli siyasi vəziyyətin yaradılmalı, “xədimlərin” “satqınlarla” psevdomübarizəsinin yerini hər şeyi bilən, istəyən və bacaran yeni qüvvənin tutmalı olduğunu bildirib. Bəs, yeni qüvvə kimdir və ya kimlərdir?..

Vardanyan yaxşı bilir ki, baş nazir Nikol Paşinyanın administrasiyası sentyabr seçkilərinə ciddi hazırlıq görür və qalib gəlmək hazırkı iqtidar üçün hava-su kimi vacibdir. Əvvəla, paytaxt əhalinin yarısının cəmləşdiyi yerdir, ikincisi, Ermənistanda seçki sistemi elə qurulub ki, İrəvanda təşkil olunacaq proses, faktiki olaraq, ölkəyə rəhbərlik mübarizəsindəki vacib halqadır. Vardanyan bunu dərk etdiyindən, bilavasitə ona fokuslanır və bildirir ki, seçkidə qalibiyyət Qarabağı tərk edən elitanı hakimiyyətdən uzaqlaşdırmaq üçün ilk addımdır. Rubenin fikrincə, həmin elitanın nümayəndələri ya bölgəni satıblar, ya da başa düşmürlər ki, əməlləri ilə Ermənistanı və erməni xalqını təhlükəyə atırlar.

***

Bu yerdə bir məqama da diqqət yetirək. R.Vardanyan yazır ki, Ermənistan üçün neqativ sayıla biləcək ssenarinin qarşısını almaq gücündə olan yeganə siyasi birlik ermənicə “Aprelu Yerkir” kimi səslənən partiyadır. “Aprelu Yerkir” tərcümədə həyat üçün ölkə deməkdir. Daha bir vacib cəhət “Həyat üçün ölkə”nin rus dilində tərcüməsi ilə bağlıdır. Təsəvvür edin ki, "Страна для жизни" youtube kanalıdır. Onu hazırda Belarusda siyasi məhbus həyatı yaşayan Sergey Tixanovski yaradıb. Kanalın məqsədi ölkədə baş verənlər, biznes həyatı və sadə vətəndaşların necə yaşamaları barədə həqiqətləri çatdırmaqdır. Uzun sözün qısası, S.Tixanovski Belarus Prezidenti Aleksandr Lukaşenkoya qarşı müxalifdir və o, 18 il müddətinə azadlıqdan məhrum edilib...

***

Deməli, Vardanyanın Leninin fikirlərinə üz tutmasının səbəbi bilindi. O, öz aləmində Ermənistanda, belə demək mümkünsə, “böyük sentyabr inqilabı” hazırlığına keçib. Bu, tipik bolşevik təfəkkürüdür. “Aprelu Yerkir”ə, yəni “Həyat üçün ölkə” partiyasına gəlincə, qurumun namizədi Mane Tandilyandır. Ruben “Telegram manifestində” Maneni və partiyadaşı Mesrop Arakelyanı dəstəkləməyə çağırış edib. Bəs, Tandilyan və Arakelyan kimlərdir ki, Vardanyan onları Qarabağ uğrunda canlarından keçməyə hazır şəxslər kimi qiymətləndirir?

Xanım Tandilyanın həyat yoldaşı və övladları xaricdə yaşayırlar. Erməni mediası bir müddət əvvəl yazmışdı ki, Mane ölkəni həyat, daha doğrusu yaşamaq üçün yer saymadığından, doğmalarını kənara aparıb. Ən əsası isə Tandilyanın övladlarını hərbi xidmətdən yayındırdığı faktı da var. İndi bu adam Rubenin fikrincə, vətənpərvərdir. M.Arakelyana gəldikdə, o, ötən il qondarma rejimdə “dövlət naziri”nin, daha dəqiq desək, Vardanyanın özünün köməkçisi postunu tutub. Deməli, belə nəticəyə gəlirik ki, Ruben Ermənistanda inqilabı adları çəkilən bu iki şəxsin köməyi ilə gerçəkləşdirməyi düşünür. Beləliklə, ayının min oyununun bir armudun başında olduğu aşkardır.

Bu aşkarlıq şəraitində əvvəldə vurğuladığımız bir fikrə də qayıtmaq istərdik. Azərbaycan hər ötən gün Qarabağdakı separatçılıq çənbərini bir qədər də daraldır. Mövcud durumda Vardanyan və digər avantüristlər kağızdan düzəldilmiş gəmidə oturub balıq tutmaq sevdasına düşənləri xatırladırlar. Ancaq bunu dərk etməyəcək qədər iflicdirlər. Rubenin “Teleqram manifesti” isə ifliclər üçün elegiyadır.

***Ə.CAHANGİROĞLU, “Xalq qəzeti”***

# Yarım əsrin astanasında

## Söhbət “Gəncə Körpü Tikinti-2”ASC-dən gedir



**“Gəncə Körpü Tikinti-2” deyəndə yada, ilk növbədə, körpülər, yol qovşaqları və keçidlər, asfalt magistral yollar, eləcə də ən müxtəli təyinatlı sosial obyektlər düşür. Cəsarətlə demək lazımdır ki, kollektiv bu illərdə, necə deyərlər, heç vaxt büdrəməyib, əksinə ildən-ilə püxtələşib, etibar qazanıb, sifarişçi təşkilatları keyfiyyətli işi ilə özünə cəlb edə bilib. Bu şirkət heç vaxt özü iş axtarmayıb, onu axtarıb tapıblar, sifariş veriblər və peşman da olmayıblar.**

### “Biz köhnə kişilərdənik...”

Artıq indidən “Gəncə Körpü Tikinti-2” ASC öz yubileyinə hazırlaşır, 50 yaşını təntənə ilə qeyd edəcək şirkət 1975-ci ildə körpü tikinti idarəsi kimi yaradılmış, 2001-ci ildən isə səhmdar cəmiyyət kimi fəaliyyət göstərməyə başlamışdır. Azərbaycanda körpülərin salınması tarixindən söz düşəndə bu müəssisənin adı birincilər sırasında çəkilir. Səhmdar cəmiyyətin rəhbəri Aqibət Məmmədovla bu barədə söhbət edərkən yarızarafat, yarıciddi dedi ki, “biz köhnə kişilərdənik və o zaman hər təşkilatın körpü salmağa nə gücü, nə qüdrəti çata bilərdi”

Şirkət respublika ərazisində körpü keçidlərinin, yolötürücülərinin, yeraltı keçidlərin, suötürücü boruların və avtomobil yollarının, eləcə də digər süni qurğuların tikintisi ilə uzun illərdir məşğul olur. Təcrübəli kollektivin fəaliyyəti bununla da yekunlaşmır. Şəhər və magistral yollarda abadlıq, müxtəlif tikinti obyektlərində monolit və yığma dəmir-beton konstruksiyaların tikinti-quraşdırma işləri də müəssisə tərəfindən həyata keçirilir. Özü də kollektivin əsas məqsədi daim irəliyə getmək, elmi-texniki tərəqqinin son nailiyyətlərindən istifadə etmək, yeni istehsal texnologiyalarına yiyələnmək, görülən işləri beynəlxalq standartlar səviyyəsinə qaldırmaq, tapşırıqları keyfiyyətlə, təhlükəsiz, vaxtında, ekoloji və əmək



mühafizəsi tələblərini pozmadan yerinə yetirmək və işçi potensialının rifah halını yaxşılaşdırmaqla yanaşı, dövlətimiz üçün infrastrukturların inkişaf etdirilməsinə nail olmaqdır. Yeri gəlmişkən, belə bir maraqlı faktı qeyd edək ki, hazırda orta aylıq əmək haqqı 800 manatı keçən bu müəssisədə hələ elə bir hal olmayıb ki, maaşlar gecikdirilsin. Ona görə də kollektiv nikbindir, qarşısına qoyduğu istənilən işi vaxtında və keyfiyyətlə başa çatdıra bilir. Burada yüksək ixtisaslı və təcrübəli kadrlar yetişib, dəqiq desək, yalnız peşəkarlar çalışır.

### “Texnikanı göstər, imkanını deyim...”

Deyir “dostunu mənə göstər, sənin kim olduğunu deyim”. İndi onun sözü olmasın, sifariş vermək, təklif tenderinə imza atmazdan qabaq ağıllı şirkət rəhbəri bu işi görəcək təşkilatın imkanları ilə maraqlanır.Bu mənada “Gəncə Körpü Tikinti-2”-yə həsəd aparmaq olar. Səhmdar cəmiyyət dünyada qabaqcıl nə var, daim onu əldə etməyə çalışıb və demək olar ki, buna nail olub. Mersedes Benz, Ford, Kamatsu, Kato, Mann, Liebherr, Bomaq, Caterpillar, Casagrande, Solimes... Yəqin tanıdınız, dünyaca məşhur olan şirkətlərin texnikalarının adlarıdır. Hamısı “Gəncə Körpü Tikinti”nin texnika parkında cəmləşib. Yük maşınları, qreyderlər, buldozerlər, ekskavatorlar, qazma aqreqatları, müxtəlif tonnajlı mobil kranlar, yolbasan maşınlar (katok), yükləyicilər, asfaltyayan maşınlar, qoşqular, yarımqoşqular, beton mikserləri və digər çox sayda texnika. Hətta müəssisə 2007-ci ildə “Oğuz-Qəbələ-Bakı” su kəməri layihəsinin həyata keçirilməsində iştirak edərkən əlavə olaraq xeyli texnika almışdır. Bütövlükdə bu cür texniki vasitələrin sayı 160-a yaxındır. İndi özünüz fikirləşin, kim istəməz ki, belə bir şirkətlə işbirliyi yaratmasın?

Bəli, müəssisə daim dünyanın qabaqcıl şirkətləri ilə əməkdaşlıq etməyə can atıb. Düşünüb ki, təhvil verdiyi obyektlər öz keyfiyyətinə və davamlılığına görə seçilməli, razılıqla qarşılanmalıdır. Burada artıq xəsislik etməklə, köhnə, səmərəsiz texnika və digər vasitələrlə iş görməklə uzağa getmək, sadəcə, mümkün deyil. Məsələn, tikintidə istifadə olunan qəliblər dünyanın qabaqcıl istehsalçısı olan “PERİ” şirkətində, deformasiya tikişləri Fransa təmsilçisi “Freysas Freysinet” şirkətində, rezin dayaq hissələri “Arsan Kaucuk” və “Maurer” firmalarında istehsal olunub.

Yaxud götürək ASC-nin özünün istehsal sahələrini. O nə asfaltı, nə beton boruları, nə də digər əsas materialları başqa yerdən almır, özü istehsal edir. Cəmiyyətin Göygöl rayonunun Quşqara kəndində saatda 60 kubmetr beton istehsal edən zavodu var. Burada müasir texnologiya ilə 15 və 18 metr uzunluğunda dəmir-beton aşırım tirləri, müxtəlif en kəsikli dəmir-beton borular və yol dirəkləri, körpü dayaq sütunları, yığma dəmir-beton keçid blokları, müxtəlif özül blokları, dairəvi dəmir-beton borular üçün təməl, başlıqaltı bloklar istehsal olunur. Bundan başqa, müəssisənin 2 ədəd “Tümmak” markalı və hər biri saatda 60 kubmetr beton istehsalı gücünə malik 2 ədəd mobil tipli beton zavodu vardır ki, bu da öz növbəsində tikinti sahəsinin vaxtında və keyfiyyətli betonla təmin edilməsində mühüm rol oynayır.

Yuxarıda adını çəkdiyimiz məkanda səhmdar cəmiyyətin daş çeşidləmə və xırdalama sexi, saatda 80 ton asfalt verən “Teltomat” və saatda 40 ton asfalt istehsal edən D-508-2A tipli zavodları da fəaliyyət göstərir. Bu zavodlardan Gəncə şəhərinin, eləcə də digər şəhər və rayonların abadlaşdırılması və asfaltlaşdırılması ilə yanaşı, avtomobil yollarının təmir və tikinti işlərinin görülməsində istifadə olunur.

Cəmiyyətin labaratoriyası da hamının diqqətini cəlb edir. Burada da ABŞ və Avropanın ən qabaqcıl labaratoriya istehsalçılarının istehsal etdikləri, müasir tələblərə cavab verən cihaz və avadanlıqlarından səmərəli istifadə olunur. Yəni keyfiyyət müəssisədə prioritet məsələlərdən biridir.

### “Bir adam körpü qurar, min adam keçər”

Unutmuşam, hansı xalqın zərb-məsəlidi, bu. Amma tarixən körpü salmaq, yol çəkmək müqəddəs, xeyirxah bir iş olub. Çünki bu işi görənlər üç-beş nəfəri deyil, minləri, milyonları nəzərdə tutub, gələcəyi düşünüb. İndi



bir anlığa düşünün ki, Bakıda bu körpülər olmasaydı, indi hansı acınacaqlı vəziyyət yaranmışdı. Cənab Prezidentimiz İlham Əliyev necə böyük uzaqgörənliklə bu işləri həyata keçirdi, düzü adam məəttəl qalır...

Bayaqdan “Gəncə Körpü Tikinti-2”-nin Direktorlar Şurasının sədri, Əməkdar mühəndis Aqibət Məmmədovla söhbət edirəm. O bunları danışır, amma bir kəlmə də demir ki, bu nəhəng obyektlərin ərsəyə gəlməsində rəhbərlik etdiyi kollektivin də payı, zəhməti var. Demir. Məsələn, “Oğuz- Qəbələ-Bakı” nəhəng su kəmərinin çəkilişi layihəsindən danışır, amma “Gəncə Körpü Tikinti-2”-nin orada necə əzmkarlıq göstərdiyindən bircə kəlmə də danışmır, sadəcə, “hə, biz də iştirak etmişik” deməklə kifayətlənir. Halbuki, bu kəmərin dağlardan-dərələrdən, sıldırım qayalardan keçməklə Bakıya gətirilib çıxarılması hansı çətinliklər bahasına başa gəlib, onu çoxları bilmir. Azərbaycanda ən böyük layihələrdən biri olan bu kəmərin uzunluğu 262,5 kilometr, diametri 2000 millimetr, suburaxma qabiliyyəti saniyədə 5 kubmetr olmaqla özüaxımlıdır və şüşəlifli borularla çəkilmişdir. Təzyiqi 20 atmosferdən yuxarı olan, çay və yol keçidləri də daxil olmaqla 55 kilometrlik hissəsi polad borulardan tikilmiş bu su kəməri sosial xarakterli olub, Bakı şəhəri əhalisinin içməli su ilə təminatında əvəzsiz rol oynayır. Oğuz-Qəbələ-Bakı kəməri ilə şəhərə özaxımlı rejimdə verilən su paytaxtın Yasamal, Nəsimi rayonlarını bütövlüklə, Səbail, Nərimanov və Binəqədi rayonlarının əksər hissəsini, Nizami, Xətai və Sabunçu rayonlarının isə bir hissəsini təmin edir.

“Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1 fevral 2006-cı il tarixli sərəncamının icrası ilə əlaqədar haqqında söhbət açdığımız şirkətin gördüyü işləri qeyd etməmək, sadəcə, mümkün deyil. Həmin sərəncama müvafiq olaraq M.Hadi küçəsi ilə Babək prospektinin kəsişməsindəki (metronun Xalqlar Dostluğu dairəsi) və Mikayıl Əliyev küçəsi ilə Babək prospektinin kəsişməsindəki (Maşın Bazarı dairəsi) bu nəhəng körpü kompleksinin inşası uğurla tamamlanaraq 2009-cu ildə istismara verilmişdir. Bu yol qovşağı istinad divarları ilə birlikdə ümumi uzunluğu 2 kilometrdən artıq olan 2 körpüdən, 3 ədəd avtomobil keçidindən ibarətdir.Əsas körpülərdən birinin uzunluğu 196 metr, digərinin uzunluğu isə 129 metrdir. Hər iki körpü 5 aşırımdan ibarətdir və aşırım hissələri xüsusi texnologiya ilə gərginləşdirilib. Yan yollardan körpülərə çıxmaq üçün 4 ədəd ramp tikilib. İstinad divarları arası yolörtüyü 22 santimetr qalınlıqda verilib ki, bu da yol qovşağının istismar müddətini artırır.

Bunlar da son deyil. Bakı şəhərində Ziya Bünyadov və Atatürk prospektlərinin kəsişməsində yolötürücüsü, Bakı şəhərində Ziya Bünyadov prospekti ilə Əhməd Rəcəbli küçəsinin kəsişməsindəki yolötürücüsü, Bakı şəhərində Koroğlu dairəsi Heydər Əliyev Beynəlxalq Hava Limanı avtomobil yolunun yenidən qurulması işləri üzrə Suraxanı və Sabunçu rayonu ərazilərində körpü keçidləri son illər ASC-nin inşa etdiyi obyektlər sırasındadır.

Bu işlər Azərbaycanın müxtəlif bölgələrində də müvəffəqiyyətlə davam etdirilib. Gədəbəy rayonu İsalı kəndində 180 şagird yerlik tam orta məktəb binası, Gəncə şəhərində “İmamzadə” Dini Kompleksinin yenidən qurulması və ətrafında abadlıq işləri, Gəncə Şəhər Təhsil İdarəsinin yeni inzibati binasının və şəhər 2 saylı 240 yerlik uşaq bağçasının, “Gəncə və Şəki şəhərlərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Azərbaycan tərəfinin payı hesabına



Gəncə şəhəri ərazisində su və kanalizasiya sistemlərinin, eləcə də hazırda tikintisi davam etdirilən Gəncə Ekoloji Park Kompleksinin və onun ətrafında abadlıq işləri, həmçinin Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi son illər bu əzmkar kollektivin inşa etdiyi obyektlərin yalnız bir qismidir.

...Az şəhər və rayon olar ki, “Gəncə Körpü Tikinti-2”-nin orada izi olmasın. Qazax rayonunda uzunluğu 7 kilometrə çatan Aşağı Salahlı avtomobil yolu, uzunluğu 13 kilometrdən çox, 10 metr enində olan Kəmərli avtomobil yolu, Sabirabad rayonunun Cavad kəndi ərazisində Kür çayı üzərindəki 144 metr uzunluğunda olan körpü, Ələt-Astara avtomobil yolunun bir hissəsinin tikintisi, burada hər birinin uzunluğu müvafiq olaraq 78 metr və 93 metr olan 2 körpünün salınması, Gədəbəy-Qızıltorpaq-Qonaqlı avtomobil yolunun 29-cu kilometrliyində Fındıqlıçay üzərində uzunluğu 84, eni 13 metrə yaxın körpü keçidi, 4 körpü inşa olunmaqla Gəncə-Dolama avtomobil yolunun tikintisi, Kürdəmir-Ucar avtomobil yolundakı 3 ədəd körpü keçidi, Tovuz dolama yolunun inşası və digər obyektlər bu gün adları çəkilən şəhər və rayon sakinlərinin rahatlığını təmin edib. Özü də keyfiyyət göz qabağındadır.

### 24-dən 65-ə gedən yol

İxtisasca yol-inşaat mühəndisi olan Aqibət Məmmədov ali məktəbi bitirdikdən və hərbi xidmətini başa vurduqdan sonra Azərbaycan Respublikasının Avtomobil Yollarının Tikintisi və İstismarı Nazirliyinin məktubuna əsasən Körpü Tikinti idarəsində tikinti ustası kimi işə başlayanda cəmi 24 yaşı var idi. 3 il sonra, yəni 1985-ci ilin iyununda isə artıq iş icraçısı təyin olunmuşdu. 1991-ci ildə, 33 yaşlı bir gənci Gəncə şəhər 2 saylı Körpü Tikinti İdarəsinə rəis vəzifəsinə təyin edirlər.

İndi Aqibət Məmmədovun 65 yaşı var. Deyir ki, eyni təşkilatda 41 il fasiləsiz işləmək sizə asan gəlməsin. Yaxşı ki, geriyə baxanda gözlərim önündə yalnız yaxşı işlər gəlib dayanır.

– Gizlətmirəm, doğulub boya başa çatdığım Gədəbəydə özümdən asılı olmadan həmişə sanki uşaq oluram, kövrəlirəm, həm də elə bil daha böyük məsuliyyət hiss edirəm. Niyə belədir, izah edə bilmirəm.

O gün on bir il qabaq istifadəyə verdiyimiz Fındıqlıçay üzərindəki körpüyə baxmağa getmişdim. Körpünün girəcəyində iki ağsaqqal şirin söhbət edirdi. Salam verib keçmək istəyirdim ki, biri qolumdan tutdu: “Aqibət Məmmədov deyilsənmi?” – deyə soruşdu. Düzü diksindim. Sonra onların xoş sözlərini eşidib ürəkləndim. Ölkə Prezidentinin, dövlətimizin göstərdiyi diqqətdən danışdılar. Dedilər ki, bu körpü onlarla kəndi birləşdirdi, adamların yolunu asanlaşdırdı, Allah razı olsun...Sevincimdən gözlərim doldu...

Eyni sözləri Gədəbəy şəhərinin girişində salınan körpünün də açılışında eşitmişdim. Qırmızı lenti cənab Prezidentimiz kəsmişdi...

Şirkət rəhbəri bunları deyib əlavə etdi ki, Azərbaycan Prezidentinin təşəbbüsü və köməyi ilə salınan yollar, körpülər, müxtəlif obyektlər ölkəmizin necə böyük sürətlə inkişafına əyani sübutdur. Bunu unuda bilmərik. Yüz illər keçsə də, bu xeyirxah işlər sadalanacaq.

...Bir müəssisədə 24-dən 65-dək yol uzun bir yoldur, amma şərəfli yoldur. Aqibət Məmmədovun göstərdiyi fəaliyyət dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Belə ki, o, Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2010-cu il tarixli sərəncamına əsasən, “Tərəqqi” medalı, 10 aprel 2012-ci il tarixli sərəncamına əsasən “Əməkdar mühəndis” fəxri adı və 15 noyabr 2018-ci il tarixli sərəncamı ilə III dərəcəli “Əmək” ordeni ilə təltif edilib. Bununla yanaşı, “Xudafərin” Ali Yol Mükafatına və “Müstəqil Azərbaycan naminə” fəxri diplomuna layiq görülüb.

50 yaşına indidən hazırlaşan “Gəncə Körpü Tikinti-2” ASC hələ bundan sonra da insanları sevindirməklə məşğul olacaq, tikdiyi yollar, körpülər, binalar, qurğular onları hamının gözündə daha da ucaldacaq.

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

# Xankəndidə növbəti saxtakarlığa yol verilməyəcək

## Ermənilərin Qarabağda öz saylarını şişirtməsi yeni gərginlik yaradar

**2020-ci ilin payızında 44 günlük şanlı savaş ərzində əsgər və zabitlərimiz böyük hünər və qeyrət nümayiş etdirərək doğma torpaqlarımızı erməni işğalçılarından azad ediblər. Məlumdur ki, hazırda Xankəndi və ətraf yaşayış məntəqələrində müəyyən sayda erməni ailələri yaşayır. Üçtərəfli Bəyanata əsasən həmin ərazi Rusiya sülhməramlılarının nəzarəti altındadır.**

Son vaxtlar Qarabağda məskunlaşan ermənilərin sayı ilə bağlı mübahisəli fikirlər səsləndirilir. Məlumdur ki, ölkəmizin rəsmiləri orada 50-55 min nəfər erməninin olduğunu qeyd edirlər. Amma Xankəndidəki qeyri-qanuni millətçi qurumlar əsassız olaraq əhalinin sayını şişirtməyə cəhd edir, guya hazırda ərazidə 120-130 min erməninin olduğunu bildirirlər. Bu, əlbəttə ki, yalandır.



Ermənilərin növbəti saxtakarlıqlarının məqsədi nədir və bunun qarşısını almaq üçün nə etmək lazımdır? **Bu sualı Bakı Dövlət Universitetinin iqtisadi-sosial coğrafiya kafedrasının müdiri, professor Çingiz İsmayılova ünvanladıq.**

Məlumat üçün bildirək ki, Çingiz müəllim uzun illər Xəzəryanı regionda neft-kimya kompleksinin ərazi təşkili ilə bağlı dəyərli elmi araşdırmalar aparıb. Bu sahədə 250-dən çox elmi və publisistik məqaləsi var. Elmi əsərlərinin böyük bir qismi rus və ingilis dillərində nəşr olunub. Ç.İsmayılov 15 kitabın və 5 monoqrafiyanın müəllifidir. 2001-ci ildə Qazaxıstanda Neft-Qaz Universitetində professor adını alıb.

**Professor sualımızı diqqətlə dinləyib əvvəlcə aşağıdakı fikirləri dilə gətirdi:**

– Hazırda Azərbaycan və Ermənistan arasında Qarabağda yaşayan ermənilərin taleyi ilə bağlı gərgin müzakirələr gedir. Bizim mövqeyimiz bəllidir və bu mövqe beynəlxalq hüquqa və normalara əsaslanır.

Azərbaycan dövləti ən yüksək səviyyədə dəfələrlə bəyan edib ki, ölkə Konstitusiyasına və qanunlarımıza tabe olan bütün ermənilər (silahlı quldur dəstələrinin üzvləri və müharibə cinayətkarları istisna olmaqla – müəllif) Qarabağda hər bir Azərbaycan vətəndaşı kimi sərbəst yaşaya və ictimai-siyasi fəaliyyətlə məşğul ola bilərlər.

Təəssüf ki, ermənilər digər məsələlərdə olduğu kimi, bu mühüm prosesdə də məkrli planlar qururlar. Onların niyyəti öz saylarını süni surətdə artırmaqla Azərbaycan büdcəsindən daha çox vəsait qoparmaqdır.

Buna görə də Xankəndi və onun ətrafındakı məntəqələrdə faktiki olaraq nə qədər erməninin məskunlaşdığını əvvəlcədən dəqiq müəyyən etmək son dərəcə vacibdir. Heç cür imkan verməmək olmaz ki, onlar bu sahədə sənədləri saxtalaşdırsınlar.

**–Professor, sizcə, bunun üçün, ilk növbədə, nə etmək lazımdır?**

–Fikrimcə, vaxt itirmədən, təcili olaraq qlobal təşkilatlara müraciət etmək, ərazidə yaşayan əhalinin dəqiq siyahısını tərtib etmək üçün beynəlxalq komissiyanın yaradılmasına nail olmaq lazımdır. Yaxşı olar ki, komissiyaya Azərbaycan və Ermənistandan başqa, qonşu dövlətlərin, eləcə də Rusiya və Gürcüstanın, eləcə də Orta Asiya respublikalarından, heç olmasa, birinin nümayəndələri daxil edilsin.

Düşünürəm ki, bu prosesə BMT və ATƏT-in nümayəndələrini də cəlb etmək olar. Dünya bilməlidir ki, rəsmi Bakı hər bir problemin ədalətli və aşkar şəraitdə çözülməsinin tərəfdarıdır. Qoy beynəlxalq ictimaiyyət bir daha bunun şahidi olsun ki, Azərbaycan haqqın və ədalətin tərəfindədir.

Hər kəsə yaxşı bəllidir ki, ermənilərin ta qədimdən sənədləri saxtalaşdırmaq şakəri var. Bir fakt deyim. 1936-cı ildə Moskvada keçmiş SSRİ-nin coğrafi və siyasi atlası nəşr olunub. Orada Göyçə gölü öz həqiqi adı ilə qeyd edilib. Amma ermənilər sonrakı nəşrdə bunu Sevan gölü yazdırdılar.

Ermənilər Qərbi Azərbaycan və Zəngəzur ərazisindəki tarixi yer adlarımızın başına min oyun açıblar. Biz uzun illər buna dözmüşük. Ya da haqqımızı tələb edə bilməmişik. Fikrimcə, onlar bizim toponimləri dəyişən kimi, biz də dəyişməli idik.

Bəli, tolerant xalqıq. Bəlkə də, bu bizim həm üstün, həm də zəif cəhətimizdir. Yəni biz ermənilər kimi kinli millət deyilik, bizim genetik kodumuz fərqlidir. Amma bu ürəyi yumşaqlıq başımıza çox bəlalar gətirib. Biz bundan dərs çıxarmalıyıq.

İndi bəzi ermənilər guya sülhpərəst olublar. Deyirlər ki, Xankəndinin adı Stepanakert kimi qalsın. Olmaz! Siz öz ərazinizdə bütün adları dəyişirsiniz, bəs biz niyə dəyişə bilmərik? Bu, bizim ərazimizdir. Stepanakert adlı şəhər yoxdur. Oranın adı Xankəndidir. Bunu birdəfəlik bilsinlər!

Bir daha ürək ağrısı ilə qeyd etmək istəyirəm ki, biz vaxtilə onlara çox güzəştə getmişik. Onlar isə öz saxtakar əməllərini bu gün də davam etdirirlər. Yaxşı ki, İkinci Qarabağ müharibəsində qalib gəldik. Bu, çox parlaq qələbədir. Cənab Ali Baş Komandana, Milli Ordumuza eşq olsun deyirəm. Eyni zamanda, şəhidlərimizin ruhu şad olsun. Bu gün bütün bölgələrimizdə çox sayda şəhid abidələri ucaldılıb. Bu abidələrin hamısı bizim şanlı tariximizin rəmzidir.

**– Qarabağda yaşayan ermənilərin yaxın gələcəkdə Azərbaycan əhalisi ilə inteqrasiya barəsində nə düşünürsünüz?**

– Düşünürəm ki, bu proses yaxın bir neçə onilliklər ərzində olacaq. Bu, zəruri prosesdir. Ermənilər Azərbaycan dövlətinin qanunlarına uyğun yaşayıb fəaliyyət göstərsələr, bir xalq və toplum olaraq bundan özləri də fayda götürəcəklər.

Azərbaycan sülhsevər dövlətdir. Biz regiona sülh, əmin-amanlıq, təhlükəsizlik gətirəcəyik. Bunun qarşısını heç bir qüvvə ala bilməz.

**– Çingiz müəllim, əraziyə yeni erməni ailələrinin gətirilməsi üçün cəhdlər olacaqmı?**

– Mən uzun illər iqtisadi coğrafiya sahəsində çalışan bir mütəxəssis kimi düşünürəm ki, Qarabağla heç bir hüquqi əlaqəsi olmayan erməni ailələrinin əraziyə köçürülməsi mümkün olmayacaq. Düzdür, bunu arzulayan beynəlxalq qüvvələr mövcuddur. Lakin Azərbaycan dövlətinin suveren hüquqlarını heç kəs poza bilməz.

Bu yerdə ermənilərin hazırda yaşadıqları ərazilərdəki təbii resurslar, coğrafi relyef haqqında qısa məlumat vermək istərdim. Onların hazırda məskunlaşdığı ərazi dağ və dağətəyi bölgədir. Bu yerlərdə yol çəkmək, evlər ucaltmaq düzən yerlərə nisbətən bir neçə dəfə baha başa gəlir. Ermənistanın buna gücü çatmaz və Azərbaycan dövləti də buna imkan verməz!

Bu mənada Ermənistandan əlavə əhalinin Qarabağa gətirilməsi ehtimalı yüksək deyil. Bir də ki, onlar bizdən fərqli olaraq yad, özgə torpaqlara və dövlətlərə köçməyə çox meyillidirlər. Vikipediyada qeyd olunub ki, guya Ermənistanda 2,9 milyon əhali var. Orada faktiki olaraq heç bunun yarısı qədər insan yaşamır.

**Söhbəti qələmə aldılar:**

***Leyla HADİYEVA,***
***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

# "Qara qitə" uğrunda mübarizə qızışır

**Çin Xalq Respublikasının (ÇXR) Sədri Si Cinpin bu gün keçiriləcək BRİKS sammitində iştirak etmək üçün Cənubi Afrika Respublikasına səfərə gəlib. Cənab Cinpin sammitdə iştirakla yanaşı, Afrikada bir sıra görüşlər də keçirməyi planlaşdırır. Politoloqların sözlərinə görə, Cənubi Afrikanın rəhbərliyi ilə tamhüquqlu danışıqlar aparmaq qərarı Pekinin "qara qitə"də mövqelərini daha da möhkəmləndirmək istəyi ilə diktə olunur. Çin Qərb şirkətlərini Afrikadakı ən böyük infrastruktur layihələrindən uzaqlaşdırdığı bir vaxtda, Qərb ölkələri Çin iqtisadiyyatında böhranın olacağını proqnozlaşdırır və afrikalıları Pekinlə əməkdaşlığın riskləri barədə xəbərdar edirlər.**



ÇXR Sədri Si Cinpinin Cənubi Afrikaya səfəri iki ölkə arasında əlaqələrin qurulmasının 25-ci ildönümünə təsadüf edir və diplomatik iyerarxiyada ən yüksək dövlət səfəri statusuna malikdir. Bunu BRİKS sammitində iştirakla birləşdirmək ideyası bu təşkilata sədrlik edən və avqustun əvvəlində Çin prezidentinə dəvət göndərən Cənubi Afrika Respublikasının prezidenti Siril Ramafosa məxsusdur. Səfər ərəfəsində prezident Ramafosa Cənubi Afrika xalqına həftəlik mesaj göndərərək Pekin ilə əməkdaşlıq perspektivini və onun ölkə üçün əhəmiyyətini açıqlamışdı: "Ölkələrimiz arasında əlaqələr onillik strateji əməkdaşlıq proqramı (2020-2029) ilə dəstəklənir. Sədr Si Cinpinin səfəri ikitərəfli əməkdaşlıq sahələrində irəliləyişi qiymətləndirmək və onun dərinləşdirilməsi yollarını müəyyən etmək imkanı verir. Çin Cənubi Afrikanın ən böyük ticarət tərəfdaşıdır" deyən S. Ramafosa əlavə etmişdi ki, "Cənubi Afrikanın öz inkişaf yolunda Çindən öyrənəcəyi çox şey var". Cənubi Afrikanın enerji sahəsində hazırda 200-ə yaxın Çin şirkəti fəaliyyət göstərir.

Si Cinpin BRİKS sammiti çərçivəsində Çin və Afrika ölkələri arasında keçiriləcək dialoqa da sədrlik edəcək. Çin liderinin Afrikaya diplomatik yürüşü siyasi dairələrdə müzakirələrin yeni dalğasına səbəb olub. Belə ki, Si Cinpinin Cənubi Afrikaya yola düşdüyü gün Britaniyanın "Financial Times" qəzeti "vəziyyətlə tanış olan adı açıqlanmayan mənbələrə" istinadən yazıb ki, Yohannesburq sammitində Çin BRİKS ətrafında getdikcə daha fəal birləşən inkişaf etməkdə olan dövlətləri gələcəkdə bu təşkilatın G7-yə qarşı güc mərkəzinə çevrilməsinə yardıma sövq edə bilər. BRİKS-də üzv olmaq istəyən ölkələrin əksər hissəsi də Afrika qitəsindəndir və belə bir perspektiv "qara qitə" uğrunda mübarizəni daha da gücləndirir.

Öz növbəsində, Çin və Qərb ölkələrinin son illərdə apardıqları Afrika uğrunda mübarizəni təhlil edən Honq-Konqun "South China Morning Post" qəzeti qeyd edir ki, çinli podratçılarına Qərb şirkətlərini Afrikanın ən böyük infrastruktur obyektlərindən sıxışdırıb çıxarmaq üçün təxminən on il lazım olub. 1990-cı illərdə Afrika qitəsində hər on tikinti layihəsindən səkkizi Qərb şirkətləri tərəfindən həyata keçirilirdi. Si Cinpin 2013-cü ildə yeni Çin lideri olduqdan və Pekin özünün inteqrasiya meqa-layihəsini "Bir kəmər, bir yol" təşəbbüsünü təqdim etdikdən sonra vəziyyət kökündən dəyişməyə başladı. Pekin Afrikada bir neçə böyük infrastruktur layihəsinə start verdi.

Eyni zamanda, ümumilikdə, Çin artıq qitə dövlətləri üçün ən böyük ticarət tərəfdaşına çevrilib. Çinin Afrika ölkələri ilə ticarəti 2021-ci ildə 250 milyard dollara çatıb, ABŞ-da isə bu rəqəm 62 milyard dollar olub. Qərbin Afrika uğrunda mübarizədə geriləməsini onun üçün investisiya aktivliyinin getdikcə artan mənfi dinamikası ilə təsvir olunur. Son iki ildə Çinin Saharadan cənubda Afrikadakı infrastruktur layihələrinin ümumi həcmi 155 milyard dollara çatıb. Bunun fonunda ABŞ-ın bu regiona birbaşa investisiyası 2021-ci ildə cəmi 44,8 milyard dollar təşkil edib. "Hinrich Foundation" araşdırmasının müəlliflərinin fikrincə, maliyyələşmədə Çinin xeyrinə olan belə boşluq ona Afrika hökumətlərinə əhəmiyyətli təsir göstərməyə və yeni cəlbedici müqavilələr almağa imkan verib.

Ancaq Qərb Afrikadan getməyi düşünmür. Avropa İttifaqı "Bir kəmər, bir yol" çərçivəsində Çin investisiyalarına cavab olan "Qlobal Gateway" strategiyasını təsdiqləyib. Avropa təşəbbüsü 2021-ci ildən 2027-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard avro cəlb etməyi nəzərdə tutur. Bundan əlavə, G7 ölkələri inkişaf etməkdə olan ölkələrdə infrastruktur layihələrinə 600 milyard dollar vəsait cəlb etmək və sərmayə qoymaq təşəbbüsü irəli sürüblər. Afrika bu vəsaitlərin əsas alıcılarından biri olmalıdır. Bununla yanaşı, Qərb Çin iqtisadiyyatında böhranın olacağını proqnozlaşdırır və Afrika ölkələrinə Çinlə əməkdaşlığın yaratdığı risklər barədə xəbərdarlıq edir. Si Cinpinin Cənubi Afrikaya səfərindən bir müddət əvvəl ABŞ prezidenti Co Bayden Çini iqtisadi problemlərini "saatlı bomba" adlandırmışdı. Bir sıra Qərb ekspertlərinin fikrincə, "Çin Sədrinin milli təhlükəsizliyə diqqət yetirməsi iqtisadi səyləri məhdudlaşdırır və investorları qorxudur". Bütün bunlar belə deməyə əsas verir ki, böyük güc mərkəzləri arasında Afrika uğrunda mübarizə özünün daha gərgin mərhələsinə qədəm qoyur.

***S.ELAY,***
***"Xalq qəzeti"***

Dünya Şahmat kuboku yarışması

# Azərbaycan Nicat Abasovdan qələbə gözləyir

*(əvvəli 1-ci səhifədə)*

**Matçdan sonra turnirin rəsmi saytına açıqlama verən Azərbaycan şahmatçısı ABŞ təmsilçisi Fabiano Karuana üzərində ilk oyunda qazanılan qələbənin önəmli olduğunu bildirib:** "İlk oyun mənim üçün rahat oldu. Karuananın səhvindən sonra qələbə qazanmağıma heç nə mane ola bilməzdi. Fabiano gözləmədiyim səhvə yol verdi. Düzgün gedişləri edərək oyunu qələbə ilə başa vurdum. Belə səhv Karuana kimi güclü şahmatçıya xarakterik deyil. Dünya kuboku yarışı artıq uzun müddətdir davam edir, əksər şahmatçılar yorulub. Fabiano ötən gün tay-brekdə də mübarizə aparıb. Yorğunluq özünü göstərə bilər. Məndə də bir qədər yorğunluq var. Dünən oynamadığım üçün bərpa oluna bildim".

**N. Abasov üçüncü yer uğrunda oyunda sona qədər mübarizə aparacağını söyləyib:** "Cavab oyununda arxayınlaşmaq olmaz. Mənə dəstək olan hər bir kəsə təşəkkür edirəm. Bütün Azərbaycanın dəstəyini hiss edirəm. Üçüncü yer uğrunda mübarizə çox vacibdir. İlk üçlükdə olmaqla İddiaçılar Turnirində iştirakımı rəsmiləşdirmək istəyirəm".




**Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviç jurnalistlərə açıqlamasında Nicat Abasovun bu cür parlaq çıxışının böyük sürpriz olduğunu vurğulayıb:** "O, yarımfinalda beşqat dünya çempionu Maqnus Karlsenlə də yaxşı mübarizə apardı. Fikrimcə, bu, Azərbaycan şahmatı üçün uğurlu nəticədir. Azərbaycan şahmatçılarından Teymur Rəcəbov artıq bir dəfə Dünya Kubokunu qazanıb. Nicat da gözəl mübarizə apardı. İndi də üçüncü yer uğrunda yarışacaq".

Qeyd edək ki, bu gün şahmatçılar cavab oyununda üz-üzə gələcəklər. Oyun saat 15-00-da başlayacaq. Dünya kubokunda bürünc medal qazanmaq üçün Nicat Abasova heç-heçə də kifayət edəcək.

Dünya kubokunda ilk üç yeri tutacaq şahmatçılar İddiaçılar Turnirində iştirak etmək imkanı qazanacaqlar.

***L.QURBANOVA,***
***"Xalq qəzeti"***

**Atıcılıq üzrə dünya çempionatı davam edir. Dünən kişilər arasında 50 metr məsafəyə tüfəngdən uzanaraq atəş açma yarışında qalib və mükafatçılar müəyyənləşib. Bütün rəqibləri geridə qoyan çexiyalı Pyotr Nimburski 626.5 xal toplayaraq qızıl medala sahib olub. Gümüş medala 625.2 xalla Çindən olan atlet Du Linşu yiyələnib. Bürünc medala isə 625 xalla İsveçrəni təmsil edən Yan Loxbihler sahib olub.**

# "Bakı Atıcılıq Mərkəzi möhtəşəmdir"




Komanda yarışında isə Norveç birinci, Almaniya ikinci, Çin üçüncü olub.

Yarış kişilər arasında 25 metr məsafəyə tapançadan cəld atəş növündə davam edib.

40 atışdan 39-nu dəqiq yerinə yetirən çinli Li Yuehonq dünya rekordunu yeniləyərək qızıl medala sahib olub. Gümüş medala fransalı atlet yiyələnib. Klement Bessaq 30 dəqiq atışla diqqət çəkib. Bürünc medalı isə Almaniyanı təmsil edən Florian Peter qazanıb (24 dəqiq atış).

Komanda yarışında isə Çin birinci, Almaniya ikinci, Koreya üçüncü olub.

Dünya çempionatının finalı yüksəlmiş Çin, Estoniya, Yaponiya, Ukrayna komandasının üzvləri öz ölkələrinə Paris Yay Olimpiya Oyunlarına iştirak üçün lisenziya qazandırıblar.

Bu nüfuzlu yarışda mükafat qazanmağa nail olan qalib və mükafatçılar yarış təəssüratlarını jurnalistlərlə bölüşüblər.

Pyotr Nimburski bildirib ki, karyerasında ilk dəfə dünya çempionu titulunu qazanıb: "Gərgin, həm də maraqlı mübarizə şəraitində keçən yarış mənim üçün çox uğurlu oldu. Qızıl medal qazandım. Öz uğuruma sevinsəm də, komandama görə təəssüfləndim. Biz üçüncü yerdəki Çin komandasından 0,1 xal geri qaldıq. Buna görə məyus oldum".

İdmançı Bakı Atıcılıq Mərkəzində yaradılan şəraiti xüsusilə vurğulayıb: "İdmançıların öz potensiallarını üzə çıxarmasında yaradılan şərait mühüm rol oynayır. Artıq 3-cü dəfədir ki, Bakıda yarışlarda iştirak edirəm. Bakı Atıcılıq Mərkəzi möhtəşəmdir. Atış poliqonlarını bəyənirəm. Bu cür müasir və yüksək şəraitli mərkəzlər çox xoşuma gəlir".

Yarışda qızıl medal qazanan Çinin 19 yaşlı təmsilçisi Qiongyu Janq da paytaxtımızdakı qələbənin karyerasında bir ilk olduğunu vurğulayıb. O qeyd edib ki, dünya çempionatında ilk dəfə qızıl medal qazanmaqla yanaşı, Olimpiadaya da ilk dəfə lisenziya əldə edib. İstedadlı atıcı Azərbaycana gəldiyinə görə şad olduğunu bildirib: "Azərbaycanı çox sevdim. İnsanları mehriban və qonaqpərvərdirlər. Bunu mütləq qeyd etməliyəm. Atıcılıq Mərkəzi çox gözəldir. Burada yaradılan şərait, xüsusilə də yaşıllıq zonalarının çox olması atletlərin əhvalına müsbət təsir edir".

Sentyabrın 1-dək davam edəcək çempionatda planetin ən güclü nişançıları mükafatlar uğrunda mübarizədə ciddi səylər nümayiş etdirirlər. Möhtəşəm Bakı Atıcılıq Mərkəzi isə ən dəqiq nişançıların öz potensiallarını nümayiş etdirməsi üçün ideal məkanlardan biridir. Bunu yarış iştirakçıları özləri də dönə-dönə etiraf edirlər.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# Azərbaycanda zəlzələ baş verib

**Avqustun 23-də Masallı və Cəlilabad rayonlarının inzibati sərhədində zəlzələ baş verib.**

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən bildirilib ki, yerli vaxtla saat 01:23-də qeydə alınan zəlzələnin maqnitudası 5-ə bərabər olub.

Ocağı 13 kilometr dərinlikdə yerləşən yeraltı təkanlar episentrdə 4 baldan çox, ətraf rayonlarda isə 3-4 bala qədər hiss olunub.



***"Xalq qəzeti"***

Türk birliyi

# Min illərin qardaşlığı




**Üç həftə əvvəl ölkəmizdə məxsusi bir Özbəkistan ruzgarı əsirdi. Bakıda qardaş ölkənin Mədəniyyəti Günləri çərçivəsində çoxsaylı maraqlı tədbirlər gerçəkləşdirildi. Budur, yenə də paytaxtımızı qoşa dalğalanan Azərbaycan və Özbəkistan bayraqları bəzəyir. Prezident İlham Əliyevin dəvəti ilə Prezident Şavkat Mirziyoyev Azərbaycana dövlət səfərinə gəlib.**

Azərbaycan və özbək xalqlarını yaxın milli adət və ənənələr, ümumi dil qrupu, mədəniyyət və din birləşdirir. Diplomatik, iqtisadi münasibətlərimiz ən yüksək səviyyədədir. Ədəbi birlik köklərimiz neçə-neçə əsr əvvələ gedib çıxır. Əlişir Nəvai ilə Nizami Gəncəvi "tandem"i buna gözəl nümunədir. Nizami ortaq mədəniyyətimizin zirvəsində dayanır, Əlişir Nəvai onun ardıcıllarından olması ilə fəxr edib. Məhz dünyaca məşhur "Xəmsə" yaradıcılığında öncüllük Azərbaycan və Özbəkistana məxsusdur.

Filologiya elmləri doktoru Almaz Binnətova aparılan tədqiqatlara istinadla bildirib ki, Nizami "Xəmsə"sinin ən qədim variantı Özbəkistan Əlyazmalar Fondundan, Nəvai əsərlərinin ən qədim nüsxələri isə Azərbaycan Əlyazmalar İnstitutundan əldə edilmişdir. Bu o deməkdir ki, Azərbaycan–özbək ədəbi əlaqələrinin tarixi yüzilliklərə gedib çıxır. Yazıçı-dramaturq Kamil Yaşen yazır ki, böyük Nizaminin vəfatından on illər sonra, Orta Asiya monqollar tərəfindən işğal olunduğu dövrdə Xarəzmdə naməlum özbək müəllif "Müftah ül-ədl" adlı bədii əsər yaratmışdı və həmin əsərin əsasını Nizaminin "Şah və iki bayquş" haqqında hekayəsi təşkil edirdi.

Nəvai "Heyrət ül-Əbrar" ("Nəciblərin heyrəti") əsərində Nizamini öz ustadı və ilhamvericisi hesab etmiş, ona səcdə qılmış, onu "pir", "Xızr" adlandırmış, "Xəmsə"sini "Beş xəzinə" deyə şərəfləndirmişdir. Nəvai hər dastanının başlanğıcında Nizamiyə məhəbbət və hörmət əlaməti olaraq xüsusi səhifələr yazmışdır. "Gəncə günəşi elə bir bayraq qaldırdı ki, söz ölkəsini bir qələmlə birləşdirdi, dostlaşdırdı".

Bakıda və Daşkənddə hər iki dahiyə abidə qoyulub. Mədəni-ədəbi tədbirlər həmin heykəllərin ziyarəti ilə başlanır.

Sovet dönəmində iki qardaş xalqın birlyi 1979-cu ildə Azərbaycanda keçirilən Özbəkistan SSR ədəbiyyatı və incəsənəti günlərinin davamı olaraq 1980-ci ilin iyununda Özbəkistanda Azərbaycan ədəbiyyatı və incəsənəti günləri keçirilib.

Ölkələrimiz arasındakı mədəni əlaqələrdən danışarkən görkəmli özbək şairi və tərcüməçisi Osman Qoçqarın Azərbaycan ədəbiyyatından tərcümələri də qeyd olunmalıdır. Onun Mirzə Cəlildən, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Cəfər Cabbarlı ("Od gəlini", "Sevil", "1905-ci ildə" pyesləri) və başqa klassiklərimizdən, xüsusən Hüseyn Cavidin "İblis", "Əmir Teymur", "Şeyx Sənan" kimi əsərlərinin tərcümələri özbək ədəbi mühitində böyük rəğbətlə qarşılanıb.

Müstəqillik illərində Azərbaycan–özbək ədəbi əlaqələri müxtəlif aspektlərdə – həm tədqiqat, həm də dissertasiya mövzusu olaraq geniş araşdırılıb, bədii əsərlərin tərcüməsi həyata keçirilib. Bu əlaqələr kontekstində müstəqillikdən əvvəl beş, müstəqillik illərində isə iki doktorluq dissertasiyası müdafiə edilib.

Prezident İlham Əliyevin ötənilki Daşkənd səfəri zamanı Prezident Şavkat Mirziyoyev qardaşlıq münasibətlərimizi xarakterizə edərək deyib: "Özbəkistanda Azərbaycan ilə ənənəvi dostluq, etimad və qarşılıqlı anlaşma münasibətlərinə xüsusi qiymət verilir. Bu münasibətlərin əsasını ortaq mənəvi dəyərlər, din, oxşar mədəniyyətlər və dil təşkil edir. Xalqlarımızı çoxəsrlik tarix bağlayır. Bizim Şərqşünaslıq İnstitutunun fondlarında Nizami, Xaqani, Tusi, Füzuli, Xətai və bir çox başqa Azərbaycan şairlərinin və mütəfəkkirlərinin onlarca nadir əlyazmaları qayğı ilə qorunub saxlanır. Füzulinin əlyazmalarından birini mən bu gün hörmətli İlham Heydər oğluna hədiyyə etdim".

Bəli, hər iki xalq, beləcə, bir-birinin mədəniyyətindən bəhrələnib, bir-birinin mədəniyyətinə və onun inkişafına özünəməxsus təsir göstərib.

Xatırladaq ki, inişil payızda Ekspo Mərkəzində keçirilən VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında iştirakçıların daha çox Özbəkistan Milli Kitabxanası sərgi ekspozisiyasına maraq göstərdiyinin şahidi olmuşduq. Səbəbini soruşduğumuz ziyalılar ölkələrimiz arasında ortaq dəyərlərin daha çox olduğunu əsas gətirmişdilər. Sonra gördük ki, İçərişəhərdə yerləşən, Mərkəzi Asiyadan gələn tacirlər tərəfindən inşa edilmiş XV əsrə aid Buxara karvansarası da, necə deyərlər, qonaq-qaralıdır. Deməli, qarşılıqlı sevgilər əcdadlarımızdan gələn sağlam kökə bağlıdır.

Bu ayın əvvəlində Azərbaycanda keçirilən Özbəkistan Mədəniyyəti Günlərində iştirak etmək üçün ölkəmizə gəlmiş nümayəndə heyətinin rəhbəri, qardaş ölkənin Mədəniyyət naziri Ozodbek Nazarbekov jurnalistlərə müsahibəsində qardaşlığımızın mədəni-ədəbi dayaqlarından bəhs edib: "Keçmişimizə baxanda Özbəkistan və Azərbaycan xalqları arasında daim ədəbi əlaqələr mövcud olub. Təəccüblü deyil ki, bir çox Azərbaycan yazıçıları Özbəkistanda yaşayıb-yaradıblar. Eyni zamanda Özbəkistan yazıçıları Azərbaycanda yaşayıb-yaradıb, ədəbiyyatına böyük töhfə veriblər".

Təbii ki, mədəniyyət bayramı çərçivəsində daha çox tədbir məhz ədəbi əlaqələrə həsr olunmuşdu. Azərbaycan Milli Kitabxanasında özbək ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Qədirinin "Ötən günlər" əsərinin Azərbaycan dilində yeni tərcümə olunmuş nəşrinin təqdimatı yaddaqalan tədbirlərdən olub. Tədbirdə alimlər böyük məmnunluqla vurğulayıblar ki, iki ölkə arasında tarixən formalaşan ədəbi tərəfdaşlıq bu gün də davam edir və bunun da sayəsində, bütövlükdə, türk ədəbiyyatının nüfuzu beynəlxalq aləmdə daha da artır, özbək və Azərbaycan xalqlarının ədəbi potensialı dünyaya daha geniş nümayiş etdirilir.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva təqdimat mərasimindəki çıxışı zamanı deyib: "Özbəkistan, bizim özümüzdür. Biz bu gün özümüzlə görüşürük". Ardınca Günay xanım Azərbaycanda Özbəkistan Mədəniyyət Günlərinin önəmini açıqlayıb: "Bu, xalqlarımızın bir-birinə bəslədikləri sevgidir, hörmətdir, isti münasibətdir. Bu, eyni zamanda Dövlət Başçılarımız tərəfindən sərgilənən nümunəvi qardaşlıq əlaqələrinin təzahürüdür. Xalqlarımızın qarşılıqlı ehtiramını, səmimiyyətini insanlar bütün təbəqələrdə hiss edir. Biz Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu olaraq, ötən il Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Səmərqənd Zirvəsində, digər tədbirlərdə, Fond tərəfindən başladılan, növbəti dəfə Daşkənddə gerçəkləşdirilən "Şuşa Günləri"ndə, Şuşanın 2023-cü il Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunmasının açılış mərasimində bu doğmalığı, bu qonaqpərvərliyi yaşamışdıq".

Yeri gəlmişkən, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun türk xalqları, o cümlədən Azərbaycan və Özbək xaqları arasındakı mədəni birliyin gücləndirilməsinə əhəmiyyətli töhfələr verir. Məsələn, ötən il Əlişir Nəvainin 580 illik yubileyi münasibətilə şairin əsərlərindən ibarət kitabı Azərbaycan dilində nəşr edilib. Təşkilatın mərkəzi qərargahında Özbəkistanın Ali Məclisinin deputatlarının, ölkənin Azərbaycandakı səfirinin iştirakı ilə "Nəvai Günü" keçirilib.

Bəli, Azərbaycan və Özbəkistan mədəni-ədəbi əlaqələri bu gün də davam və inkişaf etdirilir. İnanırıq ki, qardaş ölkə prezidentinin dövlət səfəri münasibətlərin genişlənməsinə daha güclü stimul verəcək.

***Əli ƏLİYEV, "Xalq qəzeti"***

Şahmar Ələkbərov – 80

**"Kino" qəzetinin 1994-cü ildə hazırlanmış xüsusi buraxılışı qarşımızdadır. Tanınmış kinoşünas Aydın Kazımzadə vaxtilə baş redaktoru olduğu həmin qəzeti öz arxivindən çıxarıb bizə göndərdi. Ayrı-ayrı səhifələrdə unudulmaz aktyor, ssenarist, rejissor, Xalq artisti Şahmar Ələkbərov haqqında Aydın müəllimin özünün, həmçinin Mailə Muradxanlının, Eldəniz Quliyevin, Seymur Elsevərin, Sədaqət Məmmədlinin xatirələri və o vaxtlar "Kino"da çalışmış mərhum iş yoldaşımız Mehdi Mükərrəmoğlunun "Ölüm sevinməsin, qoy" şeiri çap olunub.**



# "Dağlarda döyüş"dən sənət zirvələrinə

Həmin xüsusi buraxılışda Şahmarın bir fikri epiqraf olaraq verilib: "Bir şeyi yaddan çıxarmaq lazım deyil ki, bizim sənətdə işləmək üçün insana xas olan adi keyfiyyətlər çox vacibdir. Nəciblik, xeyirxahlıq, tərbiyə, mədəniyyət, qayğıkeşlik, xeyrə-şərə yaramaq kimi müsbət keyfiyyətlər istedad qədər vacibdir". Dostlarının dediyinə görə, onun özündə bütün bu keyfiyyətlər cəmləşmişdi. Cəmi 49 il yaşasa da, qazandığı hörmət-izzət, sevgi hüdudsuz idi.

**Xalq artisti Tariyel Qasımovun bir xatirəsi burada yerinə düşür:** "Tələbəlik illərində imkansız olduğum üçün 4 il dostum Şahmargildə qalmışam. Şahmar institutu qurtaran kimi hərbi xidmətə gedəndə anasına demişdi ki, "Ana, mən əsgər gedirəm, qoy Tariyel evdə qalsın, ha!" Anası da məni buraxmadı. Yəni Şahmarın anası tək olduğuna görə mən onlarda qaldım. Hətta evləndim və Şahmar əsgərlikdən qayıdana qədər ailəmlə o evdə yaşadım. Şahmar gələndən sonra isə başqa yerə köçdüm".



**Rolları.** İndiki nəsil Şahmar Ələkbərovun teatrdakı parlaq çıxışlarından az xəbərdar olsa da, onun filmoqrafiyasını, az qala, əzbər bilir. Çünki vaxtaşırı göstərilən "Dağlarda döyüş" bədii filmində Fərrux, "Bakıda küləklər əsir" filmində Azad, "Mən ki, gözəl deyildim"də Məzahir, "Yeddi oğul istərəm"də Qəzənfər, "Qızıl qaz"da Rizvan, "Qatır Məmməd"də Qatır Məmməd, "Arxadan vurulan zərbə"də Gündüz, "İntizar"da Fərhad", "Axırıncı aşırım"da İman, "Həyat bizi sınayır"da Arif, "Babək"də Cavidan və sair rollarının hamısı yaddaqalan olub.

Sərhədçi Fərruxun dağlarda döyüşü ilə kinoya gələn Şahmarın sənət yolu keşməkeşli olsa da, sənət zirvəsinə yön alıb, illər keçdikcə tamaşaçıların sərhədsiz sevgisini qazana bilib. Oynadığı obrazlar bir-birindən fərqli, xarakter və dünyagörüşcə müxtəlif olsa da, onları birləşdirən Şahmar Ələkbərovun aktyor istedadı, gözəl ifa tərzi və bir də sənətinə olan hədsiz məhəbbətidir.

**Rejissor işi.** Anarın "Şəhərin yay günləri" povesti əsasında Gülbəniz Əzimzadə ilə birgə "İmtahan" filmini çəkib. İlk sərbəst işi isə Elçinin "Toyuğun diri qalması" povesti əsasında çəkilən "Sahilsiz gecə"dir. Son filmi Əliağa Vahidə həsr etdiyi "Qəzəlxan" olub. Təəssüf ki, amansız ölüm ona bu filmin ekran taleyini görməyə imkan verməyib. Bakı milyonçusu Ağamusa Nağıyev haqqında yazdığı ssenari əsasında filmi isə çəkə bilməyib. Ölümündən 3 il sonra bu işi rejissor Rövşən Almuradlı gerçəkləşdirib və "Yük" adlı gözəl film yaranıb.

"Yeddi oğul istərəm" filmindən məşhur səhnə yada düşür. Filmdə Qəqəninin "Ölmə, Qəzənfər dayı, ölmə!" deyə onu yaralı halda qucaqlaması unudulmaz epizoddur. Bu, elə nadir səhnələrdəndir ki, hətta ölüm anında aktyor tamaşaçını faciənin içərisindən qoparıb, təbəssümə qovuşdurur. Şahmar özü də sənətin cazibəli dünyasından, pərəstişkarlarının sevgi aləmindən belə bir işıqlı təbəssümlə qopub getdi.

**Qəqəni rolunun ifaçısı, Mədəniyyət və İncəsənət Universitetinin aktyor sənəti kafedrasının baş müəllimi, Prezident mükafatçısı, Əməkdar artist Fərhad İsrafilovun dedikləri:**

– Yaşca ondan xeyli kiçik olsam da, aramızda əsl dost münasibəti vardı. "Yeddi oğul istərəm" filminin çəkilişi boyunca da, sonra həyatda da Şahmar müəllimlə çox vaxt birlikdə oldum. İllər sonra belə onun yanında özümü balaca uşaq saymışam. Xasiyyətcə ciddi adam olsa da, mənimlə ünsiyyətində üzündən təbəssüm əskik olmazdı. Kinostudiyanın həyətində, küçələrdə mənimlə birlikdə gəzərdi, maraqlı söhbətlər, zarafatlar edərdi.

Doğrusu, Şahmardan sonra özümdə bir yetimlik hiss edirəm... "Qəzəlxan"ı çəkəndə üzrxahlıq etdi ki, bu filmdə mənə uyğun rol yoxdur. Mən isə dedim ki, sizin çəkdiyiniz filmdə fəhləlik də eləmək xoşdur. Sonra filmdə iştirak edim deyə, mənə epizodik rol verdi... Çoxlu unudulmaz xatirələrim var... Axı, mən onun Qəqənisiydim...

**Son olaraq.** Nədənsə, ondan danışanda dəfələrlə çaşıb "Şahmar Əkbərzadə" demişəm. Bəlkə də, eyni adı daşıyan gözəl aktyorun da, gözəl şairin də ruhuna ehtiramıma görədir. Elə bu yazını şair Şahmarın aktyor Şahmara da aid edilə biləcək misraları ilə tamamlayıram:

**Bəxtin gözlənilməz günlə rastlaşar,**
**Odun da, közün də Şahmarsızlaşar,**
**Dadın da, duzun da Şahmarsızlaşar,**
**Ayırar bu dünya bizi nə vaxtsa.**

Hər iki Şahmar bizdən ayrılıb getsə də, ölməz sənətləri ilə, sevgi saçan təbəssümləri ilə həmişə bizimlə bir yerdədirlər.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

Rəsm salonlarında

# İçərişəhərin "Abşeron" rənglər dünyası...

**...Təcrübə müəllimimlə birlikdə Qız qalasının yanından ötüb qədim İçərişəhərə daxil olduq. Burada çoxsaylı turistlər var idi. Onlar kiçik töhfə mağazalarındakı antik əşyalara, suvenirlərə xüsusi maraq göstərirdilər. Biz isə Asəf Zeynallı, 8 ünvanına, "Abşeron" rəsm qalereyasına tərəf tələsirdik. Orada qalereyanın rəhbəri, tanınmış sənətşünas Eldəniz İbrahimov bizi gözləyirdi.**

Eldəniz müəllim dedi ki, bu qalereya Azərbaycanın mədəniyyət tarixində ilk özəl rəsm salonudur. Həm sovetlərə, həm müstəqilliyə qədər paytaxtımızda özəl rəsm qalereyası olmamışdır. Qalereya fəaliyyətə 1997-ci ilin yayında başlayıb. Həmin ilin noyabrında isə ilk "Natürmort" sərgisi keçirilib.

Qeyd edək ki, "Abşeron"da ölkəmizin, o cümlədən türk xalqlarının tanınmış rəssamlarının əsərləri dəfələrlə nümayiş olunub. Qalereya bir çox istedadlı rəssamlarla sıx əməkdaşlıq edir. Onlardan biri də tanınmış fırça ustası Məhəmməd Orucovdur. Öyrəndik ki, rəssamın həm burada, həm də Türkiyədə ondan çox sərgisi keçirilib. Onun "Nənələr", "Natürmort", "Şəhərin yay günləri", "Pəncərə" tabloları tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Yeri gəlmişkən, əsərlərinin bir çoxu bu sərgilərdə kifayət qədər yüksək məbləğdə satılıb.

Qalereyadakı əsərlərə baxdıqda bu tablolarda Azərbaycan təbiətinin gözəlliyini, Bakımızın bənzərsiz mədəniyyət abidələrini, insanların könül dünyasının sayrışmalarını görmək mümkündür.

**Eldəniz İbrahimov bildirdi:**

– Əcnəbilər buradakı əsərlərə də biganə qalmırlar. Onların diqqətini özünə çəkən əsas məqam isə rəssamlarımızın özəl və qeyri-adi rəng duyumudur. Bizim rəngkarlar "isti" və "soyuq" boyalardan elə məharətlə istifadə edirlər ki, adam bir an rəsmlərdə əks olunan görüntülərin gerçək olduğuna inanır.



Qalereyada digər istedadlı rəssam Valeh Kərimovun "Dəhnə kəndi" tablosu da diqqətimizi cəlb etdi. Rəsmdə Azərbaycan kəndinin gözəlliyi, buradakı evlərin özünəxas memarlıq üslubu qabarıq əks olunub.

...Biz qalereyada olarkən Qazaxıstandan 2 turist salona daxil oldu. Onlar həvəslə tablolara göz gəzdirdilər. Məlum oldu ki, qonaqlar Azərbaycan təsviri sənətinin bir çox korifeyləri ilə, uzaqdan da olsa, tanışdırlar. Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov, Vəcihə Səmədova və başqa görkəmli rəssamlarımız barədə xoş fikirlər söylədilər.

Sənətşünas Eldəniz İbrahimov qonaqları maraqlandıran sualları ətraflı cavablanırırdı. Biz isə bu özəl və gözəl sənət ocağını xoş əhval və zəngin duyğularla tərk etdik.

***Leyla HADİ, tələbə-jurnalist***

## "Günay Sığorta" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

"Günay Sığorta" Açıq Səhmdar Cəmiyyətinin (ləğv prosesindədir) 5 oktyabr 2023-cü il saat 15.00-da Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 75C nömrəli ünvanda "Günay Sığorta" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** "Günay Sığorta" ASC-nin (ləğv prosesindədir) təşkilati strukturu və ştat cədvəli.

**2.** "Günay Sığorta" ASC-nin (ləğv prosesindədir) büdcəsi.

**3.** Günay Sığorta" ASC-nin (ləğv prosesindədir) ləğvetmə komissiyasının fəaliyyəti (səlahiyyətlər, iş qaydası və s.).

**4.** Digər təşkilati məsələlər.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə cəmiyyətin Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 75C nömrəli ünvanındakı ofisinə gələrək tanış olmaq mümkündür.

Əlaqələndirici şəxs – Samirə Alızadə, telefon – 990 (dax. 9945).
Telefon – (+994 12) 990 (dax: 9945)
Ünvan – Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 75C
Mail – samira.alizade@gunaysigorta.az

## "Bakı Tələbat Qabları" ASC səhmdarlarının nəzərinə!

23 sentyabr 2023-cü il saat 10.00-da " Bakı Tələbat Qabları" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin nizamnaməsinə əlavə və dəyişikliklərin qəbul edilməsi.

**2.** Cəmiyyətin müşahidə şurasının, icra orqanının rəhbərinin və maliyyə – təftiş müfəttişinin seçilməsi.

**3.** Cəmiyyətin qanuni təmsilçisinə müvafiq səlahiyyətlərin verilməsi.

**4.** Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərlə tanış olmaq üçün cəmiyyətin icra orqanına müraciət edə bilərlər. Əlaqə telefonu-012-425-10-11.

Ünvan-Bakı şəhəri, Bakıxanov qəsəbəsi,Bəşir Bünyadov küçəsi 2578-ci məhəllə, döngə 903.

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 179 (30295) 23 avqust 2023-cü il, çərşənbə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Pauerliftinqçilərimiz dünya çempionu oldular

**Azərbaycan pauerliftinqçiləri Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən dünya çempionatında uğurla çıxış ediblər.**




Təmsilçimiz Zəhra Dadaşova 2 qızıl medal qazanıb. İdmançı +55 kq çəki dərəcəsində gənclərin yarışında ən yaxşı nəticəyə (78 kq) və ümumi çəkiyə görə (223 kq) buna nail olub. Onun komanda yoldaşı Leyla Kərimova (+86 kiloqram) isə mundialda ən yaxşı nəticəyə (78 kiloqram) və ümumi çəkiyə görə (148 kiloqram) qızıl medallara sahib olub. Komandamızın digər üzvü Talıb Zeynalov (+107 kiloqram) gənclərin yarışında 2 gümüş medal qazanıb. O, ən yaxşı nəticəyə (160 kiloqram) və ümumi çəkiyə görə (307 kiloqram) fəxri kürsüyə qalxıb.

## İki boksçumuz bürünc medalı təmin edib

***Sloveniyanın Maribor şəhərində məktəbli boksçular arasında keçirilən Avropa birinciliyində təmsilçilərimizin uğurlu çıxışı davam edir.***



Komandamızın üzvlərindən İsmayıl Vəliyev (70 kq) və Səftər Məmmədzadə (90 kq) yarımfinala yüksəlməklə özləri üçün ən azı bürünc medalı təmin ediblər.

Dörddəbir finalda Toğrul Quliyev (57 kq), Şahin Aslanov (52 kq), Seydəmir Quliyev (54 kq), Adil Zalov (63 kq), Nicat İmanov (66 kq) və Mədinə Məmmədova da (60 kq) yarımfinal üçün mübarizə aparacaqlar.

## Cənubi Koreyada uğurlu çıxış

***Cənubi Koreyanın Çunçhon şəhərində keçirilən açıq dünya çağırış yarışında daha bir parataekvondoçumuz medal qazanıb.***



G4 kateqoriyalı turnirdə Əbülfəz Abuzərli (80 kq, K-44) bürünc medala yiyələnib. Bundan əvvəl İmaməddin Xəlilov (70 kq, K-44) birinci yeri tutub.

Qeyd edək ki, yığma daha əvvəl Avropa paralimpiya çempionatında 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıb.

***L.SABİRQIZI, "Xalq qəzeti"***

Texnologiya yenilikləri



## Hipersəs sürətli raket sınaqdan çıxarılıb

**ABŞ Hərbi Hava Qüvvələri ARRW Havadan Atılan Sürətli Cavab Silahı) proqramı çərçivəsində hipersəs sürətli raket prototipinin ilk sınağını keçirib.**

Bu barədə Amerikanın həftəlik "Defence News" nəşri ABŞ ordusuna istinadən məlumat yayıb. Nəşr qeyd edir ki, avqustun 19-da Cənubi Kaliforniya sahillərində "Boeing B-52H Stratofortress" strateji bombardmançı təyyarəsi AGM-183A hipersəs raketini atıb. ABŞ ordusu sınağın uğurlu olub-olmadığını dəqiqləşdirmir. Bildirilir ki, ARRW-nin "imkanları haqqında dəyərli məlumatlar" əldə edilib.

***Aytən NƏCƏFOVA, "Xalq qəzeti"***

## "iPhone"nin yeni rəngli şarj kabelləri

**"iPhone 15" seriyası korpus rənginə uyğun USB-C kabellərini istehsal edəcək. Bu modeldə olan telefonlar eyni rəngdə şarj kabelləri ilə təchiz olunacaq.**



Belə ki, X "Twitter" istifadəçisi olan "Apple" şirkətinin işçisi Bu Majin həftəsonu paylaşdığı postda yeni kabel rənglərini nümayiş etdirib. Şirkətin digər əməkdaşı Kosutami də etdiyi paylaşımda bu kabellərin ağ, qara, sarı, bənövşəyi və narıncı rənglərdə olacağını qeyd edib.

***F. HÜQUQQIZI, "Xalq qəzeti"***

Gəlimli, gedimli dünya

## Şəhidin adını yeni doğulan qardaşı yaşadacaq



**Qubada Vətən müharibəsi şəhidi Musa Məhəmmədovun valideynlərinin əkiz körpələri doğulub. Dünyaya göz açan oğlan uşağına torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş qəhrəman qardaşının adı verilib. Musanın əkiz bacısının adı isə Alisadır.**

Bu münasibətlə Quba Rayon İcra Hakimiyyətinin, Yeni Azərbaycan Partiyası Quba Rayon Təşkilatının nümayəndələri, şəhid ailələri üzvləri rayonunun Zərdabi qəsəbəsində yaşayan Bəhram və Rübabə Məhəmmədovlar yaşadıqları evdə ziyarət ediblər. Valideynlərə gözaydınlığı verilib, körpələrə hədiyyələr təqdim edilib.

***"Xalq qəzeti"***

Sosial şəbəkələrdən seçmələr

## "Yay da ki, gec gəlib, tez keçir yaman"…

Son vaxtlar sosial şəbəkələrdə ilin ayrı-ayrı fəsilləri ilə bağlı çox təsirli duyğu- düşüncələr yer alır. "Facebook"da dostluğumda olan istedadlı şairə, yazıçı-publisist Sədaqət Kərimovanın dünənki paylaşımında builki yayın özəllikləri ilə bağlı poetik düşüncələr diqqətimi cəlb etdi:



*Yayı gözləyirik biz qış uzunu,*
*Ayları həsrətlə yola veririk.*
*Yaya saxlayırıq neçə arzunu,*
*Ah necə, ah necə ümid dəririk.*

*Yay da ki, gec gəlib, tez keçir yaman,*
*Bir nəfəs dərməyə amanı çatmır.*
*İstiyə, bürküyə qarışır başı,*
*Arzuya, murada zamanı çatmır.*

*Arxada aldanmış ümidlər qoyub,*
*Yay son günlərini yaşamaqdadır.*
*Payız nəsimini hiss edən ürək*
*Öz kədər yükünü daşımaqdadır.*

***Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"***

Maraq dünyamız

## Siqaret heyvanda da xərçəng yaradır



***Son araşdırmalar nəticəsində açıqlama verən səhiyyə mütəxəssisləri siqaretin ekosistemdəki bütün canlılara mənfi təsir etdiyini bildiriblər. Belə ki, zərərli vərdişin qurbanı olan digər canlılar evimizdəki pəncəli "dostlarımızdır". Bəs, siqaretin ev heyvanlarına mənfi təsiri nədir?***

Qeyd edək ki, dünyada təxminən 1,5 milyard insan siqaret çəkir. Tüstü nəticəsində havaya qarışan bir çox zəhərli maddələr insanlar kimi heyvanları da təhlükəyə məruz qoyur. Digər tərəfdən isə, atılan siqaret kötükləri heyvanlar tərəfindən yeyildikdə onların orqanizmində problemlər yaranır.

Evdə bəslədiyimiz balaca dostlarımızın yanında çəkdiyimiz siqaretin tüstüsü belə onların həm tüklərinə, həm də daxili orqanlarına ciddi şəkildə təsir edir.

Məsələn, siqaret quşlarda ağciyər xərçənginə və bir çox heyvanda göz infeksiyasına səbəb olur. Xüsusən də itlərdə burun xərçəngi yaradır.

Ev heyvanlarımızı və təbiətdə yaşayan bütün digər canlıları siqaretin zərərli təsirindən qorumaq insanlıq borcumuzdur. Gəlin buna riayət edək!

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

## Azərbaycan komandası Yekaterinburqda ilk medallarını qazanıb



***Azərbaycan komandası Rusiyanın Yekaterinburq şəhərində keçirilən Beynəlxalq Universitet İdman Festivalında çıxışını davam etdirir.***

Gənclər və İdman Nazirliyindən "Xalq qəzetin"nə bildiriblər ki, komandamız bu nüfuzlu yarışda ilk medallarını qazanıb. Belə ki, yunan-Roma güləşi üzrə Sərxan Məmmədov (130 kq) yalnız finalda uduzub və gümüş mükafata sahib olub. Onun komanda yoldaşları Elvin İbadov (55 kq) və Ziya Babaşov (63 kq), Xasay Həsənli (77 kq) bürünc medal əldə ediblər.

Boksçularımızdan isə Mehbarə Məmmədova (48 kq) və Şəmsi Şahbazov 3-cü yeri tutublar.

Qeyd edək ki, avqustun 31-dək keçiriləcək Beynəlxalq Universitet İdman Festivalı Yekaterinburq şəhərinin 300 illik yubileyinə həsr edilib. Yarışda 36 ölkədən müxtəlif universitetlərin tələbələri 14 idman növündə qüvvələrini sınayırlar.

Festivalda Azərbaycanı 10 təhsil ocağından 54-ü kişi, 15-i qadın olmaqla 69 idmançı təmsil edir. Komandamız 8 idman növündə - badminton, stolüstü tennis, boks, güləş, taekvondo, futzal, üzgüçülük və sambo üzrə mübarizə aparacaq.

***L.QURBANOVA, "Xalq qəzeti"***

Proqnoz

## Hava yenə isti olacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən avqustun 23-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Şimal küləyi əsəcək. Gecə 21-26°, gündüz 33-38° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu,-nisbi rütubət gecə 60-65, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 28-29° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq rayonlarda qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 34-39°, dağlarda gecə 11-16°, gündüz 23-28° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

Sağlamlıq

## Kondisioner yoxdursa...

### *Yaxud Misir fironları necə sərinləyirmiş*



***Dünyada qlobal istiləşmə başlayıb. Artıq yayda tez-tez havalar 40 dərəcədən yuxarı olur. Bəs kondisioner olmasa və elektrik şəbəkələri yüklənməyə dözməsə, insan özünü istidən necə xilas etməlidir? Qədimdə isti ölkələrdə insanlar nə edirmiş? Məsələn, Misir fironları saraylarında 50 dərəcə istidə necə sərinlənirmişlər? Tarixdən bəlli olan 7 maraqlı tövsiyə ilə tanış olaq:***

1. Evi yarıqaranlıq et. Pərdələri, jalüzləri endirin. Evə düşən gün işığı içəridə əlavə istilik yaradır.

2. Axşamdan evi soyutmağa başlayın. Bütün gecəboyu pəncərələri açıq qoyun, qapılara tor çəkin. Sərin gecə havası evi soyudur. Bayıra açılan qapı aralı qalsa, ev kifayət qədər nəfəs alacaq.

3.Gen-bol, rahat, açıq rəngli geyimlər. Cins, qara şalvar, dar geyimlər, tünd rənglər sizi çox tərlədəcək. Təbii pambıq, kətan, hörmə, ipək paltar seçin. Çalışın nazik geyimdə olun. Yayda dəri nəfəs almalıdır.

4.Başınıza sərin dəsmal bağlayın. Dəsmal, yaylıq və ya pambıq parçanı suda isladın, yaxşıca sıxın və türban, çalma kimi başınıza sarıyın, boynunuza salın. Dərhal necə sərinlədiyinizi görəcəksiniz.

5. Fironların sirri. Onlar mələfəni soyuq suda isladıb bərk sıxır, bürünüb yatarmışlar. Mələfə sulu yox, nəm olmalıdır. Bu üsul rahat yuxuya getməyə kömək edir. İslaq corab da geymək olar.

6. Lampaları azaldın, istilik verən texnikanı söndürün. Yayda axşamlar az lampa yandırın, bütün texnikanı elektrikdən ayırın. Küncdə zərif gecə işığı yetərlidir. Hətta şam belə, lampa kimi istilik vermir.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi "Abituriyent" jurnalının məsul katibi

**HİKMƏT KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Asif Əsgərov və Nəsimi Rayon İcra Hakimiyyətinin kollektivi Rayon İcra Hakimiyyəti Başçısı Aparatının əməkdaşı Emin Hüseynova atası

**AZƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4859
SİFARİŞ 2121
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00